QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



*"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir*


# SƏS

*Qəzet 1991-ci il yanvarın 11-dən çıxır*

№ 028 (5500) 13 **fevral** 2018-ci il. "Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiyməti 40 qəpik**


# Prezident İlham Əliyev hər zaman qaçqın və məcburi köçkünlərin problemlərini diqqət mərkəzində saxlayır



Səh 3


"Azərbaycan nümunəvi multikultural və tolerant bir ölkə kimi dinlərarası və mədəniyyətlərarası dialoqa böyük töhfə verir" → 2



Birinci vitse-prezident Mehriban Əliyeva Müqəddəs Taxt-Tacın nümayəndə heyəti ilə görüşüb → 4



Əli Əhmədov prezident seçkilərində YAP-ın səlahiyyətli nümayəndəsi təyin edilib → 5



"Xocalı soyqırımının iyirmi altıncı ildönümünün keçirilməsinə dair tədbirlər planı" təsdiq edilib → 5



Dövlət başçısının tapşırıqlarının icrası ilə bağlı İqtisadiyyat Nazirliyində geniş kollegiya iclası keçirilib → 8



Prezident seçkilərində gənclərin və idmançıların namizədinin dəstəklənməsinə həsr olunmuş respublika toplantısı keçirilib → 6



→ 10 Ermənistan ordusundakı problemlər ölkədə ciddi narazılıqlar yaradıb



→ 12 Yaxın Şərqdə yeni "ordu", yaxud ABŞ-ın yeni planları



→ 16 "Neftçi"dən əzmkar qələbə!



# “Azərbaycan nümunəvi multikultural və tolerant bir ölkə kimi dinlərarası və mədəniyyətlərarası dialoqa böyük töhfə verir”

*Prezident İlham Əliyev Müqəddəs Taxt-Tacın nümayəndə heyətini qəbul edib*

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 10-da Müqəddəs Taxt-Tacın xarici dövlətlərlə əlaqələr üzrə katibi arxiyepiskop Paul Riçard Gallagerin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.**



AZƏRTAC xəbər verir ki, Müqəddəs Taxt-Tacın xarici dövlətlərlə əlaqələr üzrə katibi arxiyepiskop Paul Riçard Gallager Roma Papası I Fransiskin və dövlət katibi, kardinal Pietro Parolinin salamlarını Prezident İlham Əliyevə çatdırdı. Azərbaycana ilk dəfədir ki, səfər etdiyini deyən arxiyepiskop Paul Riçard Gallager göstərilən yüksək qonaqpərvərliyə görə dövlətimizin başçısına minnətdarlığını bildirdi. Azərbaycan haqqında çox məlumatlı olduğunu qeyd edən qonaq ölkəmizə səfərindən məmnunluğunu ifadə etdi, buradakı inkişafı öz gözləri ilə görməyin maraqlı olduğunu vurğuladı. Roma Papası I Fransiskin fərmanı ilə Azərbaycan Katolik Kilsəsinin ordinarisi Vladimir Feketenin yepiskop rütbəsinə yüksəldilməsinin çox sevindirici hadisə olduğunu deyən arxiyepiskop Paul Riçard Gallager bunun Müqəddəs Atanın ölkəmizdəki katolik icmasına və Azərbaycan ilə əlaqələrə verdiyi önəmin mühüm göstəricisi olduğunu bildirdi.

Roma Papası I Fransiskin iki il əvvəl Azərbaycana səfərinin tarixi hadisə olduğunu qeyd edən Prezident İlham Əliyev səfərlə bağlı xoş xatirələrinin olduğunu bildirdi. Dövlətimizin başçısı, həmçinin özünün Vatikana rəsmi səfərini məmnunluqla xatırlayaraq Roma Papası I Fransisk, o cümlədən dövlət katibi, kardinal Pietro Parolin ilə keçirdikləri görüşlərin əhəmiyyətini vurğuladı, bu cür yüksək səviyyəli qarşılıqlı səfərlərin Azərbaycan ilə Vatikan arasında sıx əlaqələrin göstəricisi olduğunu qeyd etdi. Prezident İlham Əliyev Müqəddəs Taxt-Tacın xarici dövlətlərlə əlaqələr üzrə katibi arxiyepiskop Paul Riçard Gallagerin Azərbaycana səfərinin səmərəli keçəcəyinə ümidvar olduğunu bildirdi, səfərin iki dövlət arasında mövcud tərəfdaşlıq əlaqələrini möhkəmləndirəcəyinə əminliyini ifadə etdi.

Söhbət zamanı Azərbaycanın nümunəvi multikultural və tolerant bir ölkə kimi dinlərarası və mədəniyyətlərarası dialoqa böyük töhfə verdiyi qeyd edildi.

Prezident İlham Əliyev Roma Papası I Fransiskin və dövlət katibi kardinal Pietro Parolinin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Roma Papası I Fransiskə və dövlət katibinə çatdırmağı xahiş etdi.

## MDB PA DİMBİ-nin Bakı filialı prezident seçkiləri ilə əlaqədar uzunmüddətli monitorinqlərə başlayıb

***Müstəqil Dövlətlər Birliyi Parlamentlərarası Assambleyasının iştirakçısı olan dövlətlərdə demokratiyanın, parlamentarizmin inkişafının və vətəndaşların seçki hüquqlarına riayət olunmasının monitorinqi beynəlxalq institutunun (MDB PA DİMBİ) Bakı filialı 2018-ci il aprelin 11-nə təyin edilmiş Azərbaycan Respublikası prezidenti seçkiləri ilə əlaqədar olaraq təsdiq olunmuş İş Planına əsasən uzunmüddətli monitorinqlərə başlayıb.***

Filialın mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, müxtəlif istiqamətlərdə həyata keçiriləcək monitorinqlər seçkilərin elan olunmasından rəsmi nəticələrin dərc edilməsinədək olan müddəti əhatə edəcək. MDB PAA DİMBİ Bakı filialı nəzdində yaradılan qərargahın Lənkəran, Şəki, Gəncə, Sumqayıt bölgələrində filialları yaradılacaq və ekspertlər bu bölgələrdə monitorinqlər aparacaqlar.

## Aleksandr Karavayev: “25 il əvvəlki və bugünkü Azərbaycan tam fərqli görüntülərdir”

***Hazırki seçkiqabağı ictimai rəy sorğularının yekunlarına görə, həyata keçirdiyi uğurlu daxili və xarici siyasət Azərbaycan Prezidenti İlham Əliyevin seçicilərin səs çoxluğuna iddia etməsinə əsas yaradır.***



Bunu Trend-ə Rusiya Elmlər Akademiyasından politoloq Aleksandr Karavayev deyib.

A.Karavayev bildirib: “Bugünkü Azərbaycan və 1990-2000-ci illərin Azərbaycanı tam fərqli görüntülərdir. Ölkə sözün əsl mənasında açıq səmada muzeyə çevrilib. Ölkə iqtisadiyyatı stabil inkişaf mərhələsindədir. Özü də əgər əvvəllər bunun əsas dayağı neft idisə, bu gün Azərbaycan öz turizm, nəqliyyat-logistika potensialını, eləcə də bir sıra digər sahələri inkişaf etdirir. Bu məsələdə hazırki hökumətin xidmətlərini qeyd etməmək olmaz”.

Politoloq qeyd edib ki, Azərbaycan hökumətinin əsas nailiyyətlərindən biri də həm ölkə daxilində, həm də regional kontekstdə siyasi sabitlik və təhlükəsizliyin təmin olunmasıdır.

Politoloq əlavə edib ki, Prezident İlham Əliyevin müsbət imicində xalq arasında böyük populyarlığa malik olan ailəsi də az rol oynamır: “Azərbaycan xalqı ölkədə öz ictimai fəaliyyəti ilə məşhur olan Birinci xanım Mehriban Əliyevanı sevir. Bu cür rəğbət Leyla Əliyevaya və prezident ailəsinin digər üzvlərinə də bəslənir. Bu çərçivədə Azərbaycan xalqının ölkənin ümummilli lideri, siyasi kursu İlham Əliyev tərəfindən uğurla davam etdirilən Heydər Əliyevə məhəbbət və hörmətini də unutmaq olmaz”.

## *Rəsmi xronika*

Prezident İlham Əliyev Arzu Rəhimovun 2-ci dərəcəli “Vətənə xidmətə görə” ordeni ilə təltif edilməsi haqqında Sərəncam imzalayıb. Sərəncamda qeyd edilir ki, Azərbaycan dövlətçiliyinə sadiqlik göstərərək vəzifə borcunu ləyaqətlə və yüksək peşəkarlıqla yerinə yetirdiyinə görə Arzu Yusif oğlu Rəhimov 2-ci dərəcəli “Vətənə xidmətə görə” ordeni ilə təltif edilsin.

***

Prezident İlham Əliyev fevralın 12-də “Azərbaycan Respublikasında çayçılığın inkişafına dair 2018-2027-ci illər üçün Dövlət Proqramı”nın təsdiq edilməsi haqqında” Sərəncam imzalayıb.

***

Prezident İlham Əliyev Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin hərbi qulluqçularının təltif edilməsi haqqında Sərəncam imzalayıb.

***

Prezident İlham Əliyev Mayıl Şahverdiyevə general-mayor ali hərbi rütbəsinin verilməsi haqqında Sərəncam imzalayıb. Sərəncamda qeyd olunur ki, Mayıl Seminar oğlu Şahverdiyevə general-mayor ali hərbi rütbəsi verilsin.

***

Prezident İlham Əliyev Azərbaycan Respublikasının regionlarında uşaq bağçalarının tikintisi ilə bağlı tədbirlər haqqında Sərəncam imzalayıb.

# Prezident İlham Əliyev hər zaman qaçqın və məcburi köçkünlərin problemlərini diqqət mərkəzində saxlayır

*YAP-ın VI Qurultayında da ilk çıxışın, məhz məcburi köçkünlər adından Oqtay Həziyevə verilməsi məcburi köçkünlərə göstərilən diqqətin təzahürüdür*

***Prezident İlham Əliyevin rəhbərliyi ilə aparılan uğurlu sosial-iqtisadi islahatlar və məqsədyönlü siyasət nəticəsində, ötən il ölkəmizin iqtisadi potensialı daha da güclənib və davamlı inkişaf dinamikası təmin olunub. Dövlət başçısının da qeyd etdiyi kimi, dünyada baş verən iqtisadi-maliyyə böhranına, neftin qiymətinin aşağı düşməsinə baxmayaraq, 2017-ci il ölkəmizdə sabitlik və inkişaf ili oldu. İqtisadiyyatımız son 14 il ərzində 3,2 dəfə artıb. Bu, Prezident İlham Əliyevin iqtisadiyyatımıza yenilik gətirməsi hesabına baş verib. Bu müddətdə Azərbaycan iqtisadiyyatı şaxələndirilmiş şəkildə inkişaf edib. O cümlədən, sənayedə 2,6 dəfə, kənd təsərrüfatında 1,7 dəfə artım olub. Qeyri-neft ixracımız 4,1 dəfə artıb.***





Kənd təsərrüfatı haqqında danışarkən, bir məqama xüsusi diqqət yetirmək lazımdır. Belə ki, dünyada iqtisadi böhran baş verir. Əlbəttə ki, bu, Azərbaycan iqtisadiyyatına da təsirsiz ötüşmədi. Məhz belə bir vaxtda dövlət başçısı Ulu Öndərin təcrübəsindən yararlandı. 1970-ci illərdə bizim neftdən gəlirimiz yox idi. Neftimiz var idi, lakin onun gəlirləri İttifaq büdcəsinə gedirdi. Buna baxmayaraq, Azərbaycan iqtisadiyyatı inkişaf edirdi. Pambıqçılığın, üzümçülüyün, tütünçülüyün, baramaçılığın və digər kənd təsərrüfatı sahələrinin hesabına o vaxt inkişafa nail olundu. Prezident İlham Əliyev də həmin təcrübədən yararlanmağa qərar verdi. Artıq bu istiqamətdə görülən işlər öz nəticələrini verir. Dövlət başçısı tərəfindən verilən bu tapşırıqlar nəticəsində, nəinki yüksək göstəricilər əldə olunub, artıq insanlar torpağa qayıdıb. Bütün boş torpaqlar əkilib-becərilir.

Prezident İlham Əliyev ölkəmizdə sahibkarlığın inkişafına xüsusi diqqət yetirir. Məhz bunun sayəsində, bu gün sahibkarlar Azərbaycan iqtisadiyyatının inkişafına töhfələrini verirlər. Ölkəmizdə sosial sahəyə çox böyük diqqət göstərilib və bu istiqamətdə bir çox önəmli layihələr icra edilib.

İlham Əliyev tərəfindən aparılan düşünülmüş və uzaqgörən siyasət sayəsində, bu gün Azərbaycan dünyanın aparıcı ölkələrindən birinə çevrilib. Ötən il Azərbaycan iqtisadiyyatı rəqabətlilik qabiliyyətinə görə. Davos Dünya İqtisadi Forumu tərəfindən 35-ci yerə layiq görülüb, bu yaxınlarda isə. forumun ənənəvi inklüziv inkişaf indeksində inkişaf edən ölkələr arasında Azərbaycan üçüncü yerə layiq görülüb. Bax, budur Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən aparılan uğurlu siyasətin nəticələri.

Bu gün Azərbaycanın yeganə problemi Dağlıq Qarabağ münaqişəsi və bunun nəticəsində yaranın 1 milyondan çox qaçqın və məcburi köçkün problemidir. Amma Cəbrayıl rayonunun işğaldan azad edilmiş Cocuq Mərcanlı kəndinin bərpası həm də dünyaya mesaj oldu. Prezident İlham Əliyev dünyaya mesaj verdi ki, bütün torpaqlarımız işğaldan azad ediləcək, hər qarış torpağımız abadlaşdırılacaq. Əgər Böyük Qayıdış Cocuq Mərcanlıdan başladısa, onun davamı artıq Ağdərədə gedir.



Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva da hər zaman məcburi köçkünlərə xüsusi qayğı göstərir. Azərbaycan Respublikasının Birinci vitse-prezidenti vəzifəsinə təyin olunmuş Mehriban xanım Əliyeva bu ali vəzifədə ilk müşavirəsini ötən il martın 9-da, məhz Bakı və Sumqayıt şəhərlərindəki qəzalı vəziyyətdə olan yataqxanalarda müvəqqəti məskunlaşmış qaçqın və məcburi köçkün ailələrinin köçürülmələrinə həsr etdi və çox ciddi tapşırıqlar verdi. Bundan sonra "Qəzalı vəziyyətdə olan binalarda məskunlaşmış məcburi köçkün ailələrinin yeni mənzillərlə təmin olunması layihəsi" çərçivəsində daha ağır vəziyyətdə yaşayan soydaşlarımız üçün Mehriban Əliyevanın təşəbbüsü və rəhbərliyi ilə yeni binaların tikintisinə start verildi. Onların müxtəlif ərazilərdə yeni mənzillərlə təmini və bu işlərin uğurla davam etdirilməsi ölkə əhalisinin ən həssas təbəqəsi olan qaçqın və məcburi köçkünlərə dövlət qayğısının daha bir əyani sübutudur. Təkcə onu qeyd edək ki, Birinci vitse-prezident Mehriban Əliyevanın rəhbərliyi ilə 2017-ci ildə 935 məcburi köçkün ailəsi qəzalı binalardan yeni mənzillərə köçürülüb.

Qaçqın və məcburi köçkünlər üçün indiyədək 97 müasir qəsəbə və çoxmərtəbəli binalardan ibarət yaşayış komplekslərinin salındığını, 265 min nəfər qaçqın və məcburi köçkünün mənzil-məişət şəraiti yaxşılaşdırılıb. Digər qəzalı binalarda yaşayan köçkünlərin problemləri də Mehriban xanım Əliyevanın təşəbbüsü ilə yaxın vaxtlarda öz həllini tapacaq. Dövlət başçısının da, ölkənin Birinci vitse-prezidentinin də vurğuladıqları kimi, ilk növbədə, ən ağır vəziyyətdə yaşayan dörd min köçkün ailəsi yeni evlərə köçürüləcək. Bu proses mərhələli yollarla həll edilir, həm yeni binalar tikilir, eyni zamanda, vaxtilə tikilmiş mövcud binalarda mənzillər alınaraq, məcburi köçkünlər orada yerləşdirilir.

Bütün bunları nəzərə alaraq, Yeni Azərbaycan Partiyasının fevralın 8-də keçirilən VI Qurultayında aprelin 11-də keçiriləcək prezident seçkilərində dövlət başçısı İlham Əliyevin namizədliyi irəli sürülüb. Əlbəttə ki, bu, ölkəmizin ictimai-siyasi həyatında baş verən əlamətdar hadisədir. Dövlət başçısı hər zaman qaçqın və məcburi köçkünlərin problemlərini diqqət mərkəzində saxlayır. Prezident İlham Əliyev bütün tədbirlərdəki nitqlərində qaçqın və məcburi köçkün məsələsinə toxunur və tez-tez onlarla görüşür. YAP-ın VI Qurultayında da ilk çıxışın, məhz məcburi köçkünlər adından Oqtay Həziyevə verilməsi məcburi köçkünlərə göstərilən diqqətin təzahürüdür.

***"Səs" Analitik Qrupu***

# Birinci vitse-prezident Mehriban Əliyeva Müqəddəs Taxt-Tacın nümayəndə heyəti ilə görüşüb



***Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva fevralın 12-də Müqəddəs Taxt-Tacın xarici dövlətlərlə əlaqələr üzrə katibi arxiyepiskop Pol Riçard Gallagerin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.***

AZƏRTAC xəbər verir ki, arxiyepiskop Pol Riçard Gallageri Azərbaycanda salamlayan Birinci vitse-prezident Mehriban Əliyeva bu səfərin ölkəmizlə Müqəddəs Taxt-Tac arasında münasibətlərin inkişafına təkan verəcəyinə əminliyini ifadə etdi. Mehriban Əliyeva Azərbaycanın ölkələrimiz arasında olan münasibətlərə böyük əhəmiyyət verdiyini bildirdi. Qeyd etdi ki, son illər yüksək səviyyədə keçirilən görüşlər, səfərlər, 2002-ci ildə Roma Papası II İohann Pavelin, 2016-cı ildə Roma Papası I Fransiskin Azərbaycana səfərləri bu münasibətlərdə yeni tarixi səhifə açıb. Azərbaycanda əsrlər boyu müxtəlif dinlərin, mədəniyyətlərin, millətlərin nümayəndələrinin sülh və qarşılıqlı hörmət şəraitində yaşadıqlarını deyən Birinci vitse-prezident Mehriban Əliyeva xalqımızın bu tolerantlığı, dözümlülük abhavasını, əmin-amanlığı çox yüksək qiymətləndirdiyini vurğuladı. Bildirdi ki, bu, həm Azərbaycan dövlətinin siyasəti, həm də Azərbaycan cəmiyyətinin həyat tərzidir. "Bu, Azərbaycanın ən böyük sərvətlərindən biridir və eyni zamanda, heç də sabit olmayan dünyaya vacib bir mesajdır", - deyən Mehriban Əliyeva bizim belə münasibəti həm Azərbaycanda qoruduğumuzu, həm də dünyada təbliğ etdiyimizi diqqətə çatdırdı.

Son illər Heydər Əliyev Fondu ilə Vatikan arasında mövcud əlaqələrdən məmnunluğunu ifadə edən Mehriban Əliyeva birgə reallaşdırılan irimiqyaslı layihələrin əhəmiyyətini vurğuladı. Azərbaycanın dövlət müstəqilliyinin bərpa olunmasının və ölkələrimiz arasında diplomatik əlaqələrin qurulmasının 20-ci ildönümləri münasibətilə 2011-2012-ci illərdə Vatikanda Pol Riçard Gallagerin dəstəyi ilə böyük tədbirlərin keçirildiyini, Vatikan muzeylərindən birində Azərbaycanın tarixini, ənənələrini əks etdirən sərginin təşkil olunduğunu xatırladan Birinci vitse-prezident bildirdi ki, Azərbaycan Vatikan muzeyində sərgini keçirən ilk müsəlman ölkəsi olması ilə fəxr edir. Mehriban Əliyeva Azərbaycanın, eyni zamanda, məşhur xristian abidələrinin qorunmasına öz töhfəsini verdiyini diqqətə çatdıraraq bildirdi ki, rəhbərlik etdiyi Heydər Əliyev Fondunun dəstəyi ilə Müqəddəs Marçellinio və Pietro katakombalarının bərpası işləri görülüb və 2016-cı ildə katakombalar ictimaiyyət üçün açılıb. "Çox şadam ki, Heydər Əliyev Fondu bu layihədə iştirak edib", - deyən Birinci vitse-prezident diqqətə çatdırdı ki, Fond Piyo-Klementino muzeyində Zevsin heykəlinin bərpasında, o cümlədən "Sistina" zalında yenidənqurma işlərinin aparılmasında iştirak edib.



Mehriban Əliyeva tədqiqatçılarımıza Vatikanın məxfi arxivində çalışmaq imkanı yaradıldığına görə minnətdarlığını bildirdi. Qeyd etdi ki, Azərbaycan ilə Müqəddəs Taxt-Tac arasındakı münasibətlər təqdirəlayiqdir. Azərbaycanın Birinci vitse-prezidenti gələcəkdə də belə layihələrin davam etdirilməsinə hazır olduğunu dedi. Bildirdi ki, hazırda müqəddəs Sebastyan katakombalarında sərdabaların bərpası davam edir və bu ilin sonunda bu layihənin başa çatacağı nəzərdə tutulur. Bu illər ərzində işbirliyinin dostluq səviyyəsinə yüksəldiyini deyən Mehriban Əliyeva buna görə minnətdarlığını bildirdi, gələcəkdə də bu dostluğun davam edəcəyinə əminliyini ifadə etdi.

Müqəddəs Taxt-Tacın xarici dövlətlərlə əlaqələr üzrə katibi arxiyepiskop Pol Riçard Gallager ölkəmizdə üç gün ərzində olduğunu, səfərin ona gözəl təəssürat bağışladığını, səmərəli görüşlərin keçirildiyini dedi, xalqımızın qonaqpərvərliyini yüksək dəyərləndirdi. Qonaq ölkəmizə səfəri çərçivəsində katolik icması ilə görüşdüyünü diqqətə çatdırdı. Arxiyepiskop Pol Riçard Gallager Roma Papası I Fransiskin və dövlət katibi kardinal Pietro Parolinin salamlarını Birinci vitse-prezident Mehriban Əliyevaya çatdırdı.

# Milli Məclisin növbəti plenar iclası keçiriləcək

***Fevralın 13-də Milli Məclisin növbəti plenar iclası keçiriləcək. Parlamentin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, əvvəlcə iclasda R.Y.Rzayevin Azərbaycan Respublikası Ali Məhkəməsinin hakimi, Q.V.Əliyevin Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin hakimi təyin edilmələri, bələdiyyələrin fəaliyyətinə inzibati nəzarəti həyata keçirən orqanın illik məruzəsi haqqında müzakirələr aparılacaq.***



Bundan başqa, deputatlar "Ələt azad iqtisadi zonası haqqında", "Azərbaycan Respublikası Hökuməti ilə Benilüks Dövlətləri Hökumətləri arasında xidməti pasport sahiblərinin viza tələblərindən azad edilməsi haqqında" Sazişin təsdiq edilməsi barədə, "Azərbaycan Respublikası Hökuməti ilə Macarıstan Hökuməti arasında avtomobil nəqliyyatı ilə beynəlxalq sərnişin və yük daşımaları haqqında" Sazişin təsdiq edilməsi barədə qanun layihələrini nəzərdən keçirəcəklər.

İclasda, həmçinin İnzibati Xətalar Məcəlləsində, "Konstitusiya Məhkəməsi haqqında", "Energetika haqqında", "Elektroenergetika haqqında", "Qaz təchizatı haqqında", "Elektrik və istilik stansiyaları haqqında", "Qaz təchizatı haqqında", "Meliorasiya və irriqasiya haqqında", "Bələdiyyələrin su təsərrüfatı haqqında", "Daşınmaz əmlakın dövlət reyestri haqqında", "Daşınmaz əmlakın dövlət reyestri haqqında", "Hərbi vətənpərvərlik tərbiyəsində xidmətlərə görə" Azərbaycan Respublikası medalının təsis edilməsi ilə əlaqədar "Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında" qanunlarda dəyişikliklər edilməsi barədə qanun layihələrinə baxılacaq. Eyni zamanda, iclasda "Əlilliyi olan şəxslərin hüquqları haqqında" qanun layihəsi barədə müzakirələr aparılacaq.

## Bolqarıstanın Azərbaycandakı keçmiş səfiri Nyu-Yorka baş konsul təyin olunub



Bolqarıstanın Azərbaycandakı keçmiş səfiri Maya Xristova ABŞ-ın Nyu York şəhərində baş konsul təyin olunub. AZƏRTAC xəbər verir ki, M.Xristovanın yeni təyinatından yazan nüfuzlu "24 çasa" nəşri səfirin fəaliyyətinə toxunub, onun Azərbaycan və Bolqarıstan arasında əlaqələrin siyasi, iqtisadi, mədəniyyət, kənd təsərrüfatı, elm və təhsil sahələrində inkişafında müstəsna rolunu vurğulayıb.

# Yeni Azərbaycan Partiyasının ümumrespublika müşavirəsi keçirilib

***Yeni Azərbaycan Partiyasının rayon və şəhər təşkilatları sədrlərinin ümumrespublika müşavirəsi keçirilib. Müşavirədə çıxış edən Azərbaycan Respublikası Baş nazirinin müavini, YAP Sədrinin müavini-İcra katibi Əli Əhmədov müşavirənin aprelin 11-də ölkəmizdə keçiriləcək prezident seçkiləri ilə əlaqədar olduğunu bildirib.***





Prezident İlham Əliyevin bu barədə Sərəncam imzaladığını xatırladan Əli Əhmədov artıq Yeni Azərbaycan Partiyasının seçkilərdə prezidentliyə namizədliyinin irəli sürüldüyünü diqqətə çatdırıb: "Fevralın 8-də keçirilən Yeni Azərbaycan Partiyasının VI Qurultayında partiyamızın Sədri, Cənab İlham Əliyevin prezidentliyə namizədliynin irəli sürülməsi haqqında yekdilliklə qərar qəbul olundu. Hesab edirəm ki, partiyamızın Qurultayının qərarı Azərbaycan vətəndaşlarının mütləq əksəriyyətinin birmənalı şəkildə dəstəklədiyi qərardır. Çünki Prezident İlham Əliyevin hakimiyyətdə olduğu illərdə Azərbaycan bütün sahələr üzrə böyük inkişaf mərhələsi keçib, hər bir vətəndaşın həyat səviyyəsi əhəmiyyətli dərəcədə yüksəlib, bütövlükdə ölkəmizin siması köklü surətdə dəyişib. Eləcə də, Azərbaycanın beynəlxalq müstəvidə mövqeyi güclənib və nüfuzu daha da artıb. YAP bu reallıqlar fonunda seçkilərə gedir. Bütün bu gerçəkliklər Prezident İlham Əliyevin reytinqini əhəmiyyətli dərəcədə yüksəldib".

YAP Sədrinin müavini qeyd edib ki, prezident seçkilərində Cənab İlham Əliyevin namizədliyinin dəstəklənməsi Azərbaycanın növbəti 7 il ərzində inkişafının dəstəklənməsi deməkdir. Bu mənada, YAP-ın VI Qurultayının qərarının xalqımız tərəfindən dəstəklənməsinin ciddi əsasları var.

Azərbaycanda azad və şəffaf seçkilərin keçirilməsi üçün bütün imkanların mövcud olduğunu deyən Əli Əhmədov əvvəlki seçkilərin bu prinsiplər əsasında keçirildiyini xatırladıb. Onun sözlərinə görə, bu dəfə də YAP və onun yerli strukturlarının qarşısında dayanan əsas vəzifə prezident seçkiləri kampaniyasının seçki qanunvericiliyinə və demokrtaik prinsiplərə uyğun qaydada keçirilməsini təmin etməkdir. Partiyamızın yerli strukturları bütün seçkilərdə bu istiqamətdə böyük fədakarlıq göstəriblər və inanırıq ki, bu dəfə də belə olacaq.

Müşavirədə aprelin 11-də keçiriləcək prezident seçkiləri ilə əlaqədar YAP-ın yerli strukturlarına müvafiq tövsiyə və tapşırıqlar verilib.

***ZÜMRÜD***

# Əli Əhmədov prezident seçkilərində YAP-ın səlahiyyətli nümayəndəsi təyin edilib



Azərbaycan Respublikası Baş nazirinin müavini, Yeni Azərbaycan Partiyası (YAP) Sədrinin müavini - İcra katibi Əli Əhmədov aprelin 11-də ölkədə keçiriləcək prezident seçkilərində YAP-ın səlahiyyətli nümayəndəsi təyin edilib. Partiyadan SİA-ya verilən məlumata görə, Ə.Əhmədov Azərbaycan Respublikası Seçki Məcəlləsinin tələblərinə uyğun olaraq, fevralın 12-dən aprelin 11-nə qədər Baş nazirin müavini dövləti vəzifəsində ödənişsiz məzuniyyətə çıxıb.

# "Xocalı soyqırımının iyirmi altıncı ildönümünün keçirilməsinə dair tədbirlər planı" təsdiq edilib




Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri Ramiz Mehdiyevin sərəncamı ilə "Xocalı soyqırımının iyirmi altıncı ildönümünün keçirilməsinə dair tədbirlər planı" təsdiq edilib. Tədbirlər planında Bakının Xətai rayonunda, Goranboy rayon mərkəzində və Ağcakənd qəsəbəsində Xocalı soyqırımı qurbanlarının xatirəsinə ucaldılmış abidələrin önünə əklil qoyulması mərasimlərinin keçirilməsi, ictimaiyyət nümayəndələri tərəfindən Şəhidlər xiyabanının ziyarət edilməsi, Azərbaycanın xarici ölkələrdəki səfirliklərində, nümayəndəliklərində, konsulluqlarında və diaspor təşkilatlarında soyqırımı ilə bağlı tədbirlərin (mətbuat konfranslarının, anım mərasimlərinin və s.) təşkili, xarici və yerli kütləvi informasiya vasitələri, o cümlədən teleradio kanallarında qanlı qırğını əks etdirən materialların yayılması və internet şəbəkəsində mütəmadi olaraq yenilənməsi nəzərdə tutulub.

Bundan başqa, ölkəmizdə fəaliyyət göstərən dini konfessiya və qurumlar tərəfindən Xocalı soyqırımı qurbanlarının xatirəsinə həsr olunan anım mərasimləri təşkil ediləcək, idarə və təşkilatlarda, təhsil və mədəniyyət müəssisələrində xatirə gecələri, foto-rəsm sərgiləri, şahidlərlə görüşlər keçiriləcək, Azərbaycanın ərazi bütövlüyü uğrunda mübarizəyə həsr olunan sənədli və bədii filmlər göstəriləcək. Xocalılıların müvəqqəti məskunlaşdıqları şəhər və rayonlarda (Bakı, Sumqayıt, Gəncə, Mingəçevir, Şəki, Goranboy, Bərdə, Sabirabad, Göyçay, Zaqatala, Oğuz, Balakən) dövlət qurumları rəhbərlərinin, Milli Məclisin deputatlarının və ziyalıların şəhid ailələri ilə görüşləri təşkil olunacaq.

Fevralın 26-da təhsil müəssisələrində ilk dərslər Xocalı soyqırımına həsr olunacaq, həmin gün saat 17.00-da bütün ölkə ərazisində Xocalı soyqırımı qurbanlarının xatirəsi bir dəqiqəlik sükutla yad ediləcək, Xocalı soyqırımı günü ilə əlaqədar respublikanın şəhər və rayonlarında, kənd və qəsəbələrində Azərbaycanın dövlət bayraqları endiriləcək.

# Səməd Seyidov: Milli maraqlara əsaslanan siyasət nəticəsində Azərbaycan beynəlxalq miqyasda əhəmiyyətli dərəcədə güclənib



"Azərbaycanın xarici siyasəti milli maraqlara əsaslanır". Bu fikri Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidov deyib. S.Seyidov bildirib ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə milli və dövlət maraqlarına əsaslanan siyasət həyata keçirilir. Onun sözlərinə görə, bu siyasət nəticəsində Azərbaycan beynəlxalq miqyasda əhəmiyyətli dərəcədə güclənib. "Bu siyasət nəticəsində Azərbaycanın beynəlxalq müstəvidə mövqeyi xeyli güclənib, 2011-ci ildə BMT Təhlükəsizlik Şurasının üzvü seçilib, beynəlxalq təşkilatlarda öz sözünü deyən ölkəyə çevrilib. Bu gün Azərbaycan dünyaya inteqrasiyasını inkişaf etdirərək xarici əlaqələrini genişləndirib, Şərqlə Qərb arasında möhkəm təməlli körpü yaradıb. Əlbəttə ki, bütün bunlar Azərbaycanın müstəqil dövlət olaraq gücünü daha da artırır"- deyə, komitə sədri vurğulayıb.

# Yaqub Mahmudov: "1918-ci ilə qədər Qafqazda heç zaman erməni dövləti olmayıb"

***Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Tarix İnstitutunda aparılmış tədqiqatlar nəticəsində sübut edilib ki, 1918-ci ilə qədər Cənubi Qafqazda heç zaman erməni dövləti olmayıb.***

Bunu AMEA Tarix İnstitutunun direktoru Yaqub Mahmudov deyib.

İnstitut direktoru bildirib ki, tarixçi alimlərin kollektiv əsəri olan "İrəvan xanlığı: Rusiya işğalı və ermənilərin Şimali Azərbaycan torpaqlarına köçürülməsi" adlı fundamental tədqiqat rus, ingilis, rumın, italyan, ispan və ərəb dillərinə tərcümə olunaraq dünya ölkələrində yayılıb. Yaxınlarda "İrəvan xanlığı" kitabı türk və alman dillərində də çap olunacaq.

Y.Mahmudov qeyd edib ki, Prezident İlham Əliyevin YAP-ın VI qurultayında çıxışı real tarixi faktlara, tarixi həqiqətə əsaslanıb: "İrəvan bizim tarixi torpağımızdır və biz azərbaycanlılar bu tarixi torpaqlara qayıtmalıyıq".



Ermənilər bütün dünyada saxtakar təbliğat işi aparır, iddia edirlər ki, guya onlar bu regionun ən qədim əhalisidir, guya Azərbaycan xalqı bura haradansa köçüb gəlmədir. Bəyan edirəm ki, ermənilər nəinki Cənubi Qafqaza və Azərbaycana, ümumiyyətlə, Asiya qitəsinə köçüb gəlmə əhalidir. Ermənilərin gəlmə olduğunu mənbələr və "tarixin atası" Herodot təsdiq edir. Herodot təsdiq edir ki, ermənilər Balkan yarımadasından Van gölünün ətrafına köçüb gəlmiş frigiyalıların nəsilləridir".

İnstitut direktoru vurğulayıb ki, ermənilər Cənubi Qafqazın aborigen əhalisi deyil, onlar bu torpaqlara Osmanlı imperiyası və İran ərazisindən çar Rusiyası tərəfindən köçürülüb: "Ermənilərin köçürülməsi barədə əlimizdə minlərlə arxiv sənədi var. 1918-ci il mayın 29-da beynəlxalq təzyiq nəticəsində Azərbaycan Xalq Cümhuriyyəti Milli Şurasının İrəvanın ermənilərə verilməsi barədə qərarı yanlış qərar idi. Milli Şuranın 28 üzvündən 16-sı bu qərara səs vermişdi. Yəni qərar 2/3 səs çoxluğu olmadan qəbul edilib. İyunun 1-də İrəvandan olan deputatlar - Mirhidayət Seyidov, Bağır Rzayev, Nəriman bəy Nərimanbəyov protest verdilər ki, bu, qeyri-qanuni qərardır".

# Prezident seçkilərində gənclərin və idmançıların namizədinin dəstəklənməsinə həsr olunmuş respublika toplantısı keçirilib

***Fevralın 12-də Bakı Konqres Mərkəzində bu il aprelin 11-də keçiriləcək prezident seçkilərində gənclərin və idmançıların namizədinin dəstəklənməsinə həsr olunmuş respublika toplantısı keçirilib. AZƏRTAC xəbər verir ki, toplantıda əvvəlcə Azərbaycan Respublikasının dövlət himni səsləndirilib. Sonra Azərbaycanda dövlət gənclər siyasətinin uğurlarına həsr olunan film nümayiş etdirilib.***

Filmdə Azərbaycanın dövlət gənclər siyasətinin banisi ulu öndər Heydər Əliyevin və builki seçkilərdə gənclərin və idmançıların namizədi Prezident İlham Əliyevin yürütdükləri uğurlu siyasət nəticəsində əldə edilən nailiyyətlər əks olunub.

Toplantının moderatoru, Gənclər Təşkilatları Milli Şurasının sədri Seymur Hüseynov bildirib ki, bu gün gənclər ölkə əhalisinin 30 faizindən çoxunu təşkil edir. Sevindirici haldır ki, hazırda gənclər regionda bütün sahələrdə lider dövlətə çevrilən güclü Azərbaycanda yaşayırlar. Ölkəmizdə gənclərin inkişafı və fəaliyyəti üçün hər cür şərait yaradılıb.






Seymur Hüseynov bu uğurların Prezident İlham Əliyevin yürütdüyü siyasət nəticəsində əldə olunduğunu vurğulayıb. Qeyd edib ki, Gənclər Fondunun yaradılması, Gənclər mərkəzləri və evlərinin, Olimpiya İdman komplekslərinin tikilib istifadəyə verilməsi, gənclər üçün Prezident mükafatının təsis edilməsi Azərbaycan dövlətinin gənclərə və idmançılara göstərdiyi yüksək diqqət və qayğının əyani göstəriciləridir. Gənclərimiz prezident seçkilərində onlara bu mükəmməl şəraiti yaradan Prezident İlham Əliyevin namizədliyini dəstəkləyəcəklər.

Sonra Azərbaycan Respublikasının Prezidenti yanında Gənclər Fondunun dəstəyi ilə 2017-ci ilin oktyabrında Sankt-Peterburqda keçirilən beynəlxalq musiqi festivalında 850 iştirakçı arasında birinci yeri tutan tar ifaçısı, Azərbaycan Milli Konservatoriyasının tələbəsi Orxan Zeynalov, ötən il ali məktəblərə qəbul imtahanlarında 700 bal toplayaraq "İlin tələbəsi" adına layiq görülən Mahirə Əsədova, yunan-Roma güləşi üzrə dünya kubokunun qalibi, birinci Avropa Oyunlarının çempionu, Rio Olimpiadasının bürünc mükafatçısı Rəsul Çunayev, futbol üzrə Azərbaycan milli komandasının və "Qarabağ" klubunun üzvü Mahir Mədətov çıxışlarında ölkəmizdə gənclər üçün yaradılan şərait və imkanlardan bəhrələnərək əldə etdikləri nailiyyətlər barədə məlumat veriblər. Onlar gəncləri prezident seçkilərində dövlətimizin başçısı İlham Əliyevin namizədliyini dəstəkləməyə çağırıblar.

Daha sonra Azərbaycanın Naxçıvan, Yuxarı Qarabağ, Kəlbəcər-Laçın, Gəncə-Qazax, Aran, Lənkəran, Şəki-Zaqatala, Quba-Xaçmaz, Dağlıq Şirvan, Abşeron iqtisadi rayonlarını təmsil edən gənclər çıxış edərək ölkəmizdə bu sahəyə göstərilən diqqət və qayğı nəticəsində yaşadıqları bölgələrdə yaradılan imkanlardan danışıb, seçkilərdə İlham Əliyevin namizədliyini dəstəkləyəcəklərini bildiriblər.

Paytaxt gəncləri adından çıxış edən Gənclər üçün Təhsil Mərkəzinin icraçı direktoru Fəxrəddin Həsənzadə təmsil etdiyi qurumun ölkəmizin altı bölgəsində regional mərkəzinin fəaliyyət göstərdiyini deyib. O, Gənclər üçün Təhsil Mərkəzinin də ölkə gənclərinə yaradılan əlverişli imkanlardan istifadə edərək uğurla fəaliyyət göstərdiyini, region gənclərini də əhatə edən layihə, aksiya və s. tədbirlər reallaşdırdığını diqqətə çatdırıb.

Toplantıya yekun vuran moderator Seymur Hüseynov ölkəmizin ictimai-siyasi həyatında daim yüksək fəallıqları ilə seçilən Azərbaycan gənclərinin aprelin 11-də keçiriləcək prezident seçkilərində də fəal iştirak edəcəklərinə, Prezident İlham Əliyevin namizədliyini dəstəkləyəcəklərinə əminliyini bildirib.

Sonda Əməkdar Artist Tünzalə Ağayevanın ifasında mahnılar səsləndirilib.





# Paul Riçard Gallager: Səfər zamanı Azərbaycanın nümunəvi tolerantlıq modelinin şahidi oldum



***Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) sədri Mübariz Qurbanlı fevralın 12-də Müqəddəs Taxt-Tacın xarici dövlətlərlə əlaqələr üzrə katibi arxiyepiskop Paul Riçard Gallagerin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb. DQİDK-dan AZƏRTAC-a bildiriblər ki, Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı ölkəmizdəki tolerant və multikultural mühitdən söhbət açaraq tolerantlığın Azərbaycanda çox möhkəm təməl sütunlarının və dərin tarixi-mədəni köklərinin olduğunu deyib. O vurğulayıb ki, ölkəmizdə bütün tarixi dövrlərdə etnik və dini icmalar arasında möhkəm dözümlülük əlaqələri formalaşıb, milli, dini və irqi zəmində heç bir ayrı-seçkilik faktı qeydə alınmayıb.***

Dövlət Komitəsinin sədri söyləyib ki, dövlətimizin din siyasətinin əsas sütunları milli mənəvi dəyərlərimizin qorunması, tolerantlığın, birgəyaşayışın təbliği təşkil edir. O, ölkəmizdə 28-i qeyri-İslam təmayüllü 793 dini qurumun qeydiyyatdan keçdiyini, formalaşmış dini tolerantlıq mühitinin qorunub saxlanılması və daha da möhkəmləndirilməsi üçün görülən işlər sayəsində respublikamızda 14 kilsənin, 7 sinaqoqun fəaliyyət göstərdiyini qeyd edib. Sədr mütəmadi olaraq dini ibadətgahların inşa və bərpa edildiyini, dini icmalara maliyyə yardımları ayrıldığını deyib.

Prezident İlham Əliyev tərəfindən ötən ilin Azərbaycanda "İslam Həmrəyliyi İli" elan edildiyini deyən Dövlət Komitəsinin sədri bu çağırışın İslamla digər səmavi dinlər arasında dialoq və əməkdaşlığı, harmoniyanı ehtiva etdiyini, həmin il çərçivəsində Finlandiya, İspaniya, Rusiya və digər ölkələrdə önəmli tədbirlərin keçirildiyini bildirib.

Ölkəmizdə qılınan vəhdət namazı barədə də danışan Dövlət Komitəsinin sədri dünyada dini dözümsüzlüyün, irqi ayrı-seçkiliyin yayıldığı bir vaxtda Azərbaycan təcrübəsindən yararlanmağın müsbət nəticə verəcəyinə ümidvar olduğunu qeyd edib. Mübariz Qurbanlı din pərdəsi altında gedən proseslərdən qorunmaq üçün Qafqaz Müsəlmanları İdarəsi ilə birlikdə Mərkəzi Asiya ölkələri, İran, Türkiyə ilə əməkdaşlıqdan bəhs edib.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi barədə danışan komitə sədri xalqımızın ermənilərlə etnik-dini baxımdan heç bir probleminin olmadığını bildirib. O, bu münaqişəyə baxmayaraq, Bakının mərkəzində erməni kilsəsinin qorunub saxlanıldığını deyib. Dövlət Komitəsinin sədri bu tolerantlığın müqabilində Ermənistan tərəfinin işğal altındakı torpaqlarımızda mədəniyyət abidələrimizi, o cümlədən məscidlərimizi dağıtdıqlarını təəssüflə qeyd edib.

Görüş zamanı iki ölkə arasındakı əməkdaşlıqdan bəhs edən Mübariz Qurbanlı Roma Papası II İohann Pavelin, Papa Fransiskin Azərbaycana səfərlərinin ölkələrimiz arasında əlaqələrin inkişafına müsbət təsir göstərdiyini diqqətə çatdırıb. İkitərəfli əlaqələrimizin Azərbaycandakı katolik icmasına münasibətdə də özünü göstərdiyini bildirən Mübariz Qurbanlı Dövlət Komitəsinin Azərbaycandakı katolik icması ilə yaxından əməkdaşlıq etdiyini vurğulayıb. Ölkəmizə ilk dəfədir səfər etdiyini bildirən arxiyepiskop Paul Riçard Gallager dövlətimizin başçısı tərəfindən qəbul edilməsindən məmnunluğunu ifadə edib, bir sıra mühüm görüşlər keçirdiyini bildirib. O, Azərbaycanın nümunəvi tolerantlıq modeli barədə məlumatlı olduğunu diqqətə çatdırıb, bu səfər zamanı həmin modelin əyani şahidi olduğunu deyib. Qonaq son 20 ildə dövlətimizin katolik icmasına göstərdiyi qayğını, insanların mənəvi ehtiyaclarının ödənilməsinə yaradılan şəraiti yüksək qiymətləndirib. Arxiyepiskop Azərbaycandakı katolik icmasının başçısı Vladimir Feketenin yepiskop rütbəsinə yüksəldilməsinin katolik icmasının inkişafına göstərilən qayğıdan və qarşılıqlı əməkdaşlığa verilən dəyərdən irəli gəldiyini vurğulayıb. O, humanitar sahədə əlaqələrin inkişafında Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın və onun rəhbərlik etdiyi Heydər Əliyev Fondunun mühüm rolunun olduğunu bildirib.

Görüşdə ikitərəfli münasibətlərin qorunub saxlanılmasının və inkişaf etdirilməsinin vacibliyi diqqətə çatdırılıb.

Sonda Dövlət Komitəsinin ingilis dilində nəşr etdirdiyi, ölkəmizdəki dini tolerantlıq mühitindən və erməni vandalizmindən bəhs edən kitablar qonaqlara təqdim edilib.

# Xalqın seçimi bu dəfə də dəyişməz olacaq

***Məlum olduğu kimi, Yeni Azərbaycan Partiyasının VI Qurultayında partiyanın Sədri Cənab İlham Əliyevin prezidentliyə namizədliyinin irəli sürülməsi barədə qərar qəbul edildi. Cəmiyyətdə bu qərar alqışlarla qarşılandı. Söhbət etdiyimiz müsahiblərimiz də Cənab İlham Əliyevin prezidentliyə namizədliyinin irəli sürülməsinin ümumxalq maraq və tələblərin ifadəsi olduğunu bildirdi.***



***Millət vəkili Eldəniz Səlimov:***

- Yeni Azərbaycan Partiyasının VI Qurultayında verilən qərarlar əslində, Azərbaycan seçicisinin, Azərbaycan vətəndaşının arzusunu və istəyini reallaşdırmış oldu. Çünki bu qərar təkcə YAP-çıların arzusu və istəyindən doğan bir qərar deyildi, həm də Azərbaycan xalqının, Azərbaycan seçicisinin çoxdan bəri səbirsizliklə gözlədiyi bir qərardı. Azərbaycan xalqı indiki hakimiyyətə, konkret olaraq, ölkə Prezidenti Cənab İlham Əliyevə başqa bir alternativ görmür. Bu gün Prezident İlham Əliyev alternativi olmayan bir siyasətçi, dövlət xadimi və siyasi liderdir. Azərbaycan vətəndaşı və Azərbaycan seçicisi də indiki hakimiyyətin, Möhtərəm Prezidentimiz İlham Əliyev cənablarının yenidən iqtidarda qalmasını, bundan sonra da xalqla birgəliyini davam etdirməsini istəyir. Bu istəyin və arzunun qarşısını kim ala bilər ki? Əlbəttə, heç kim və heç bir qüvvə. Ona görə də, hakim partiya belə bir qərar verməklə, həm də Azərbaycan xalqının qərarını rəsmiləşdirmiş və reallaşdırmış olub.



***Millət vəkili Tahir Mirkişili:***

- Bu gün Azərbaycan inkişafa yönəlmiş dəyişikliklər dövrünü yaşayır. Ölkədə ciddi iqtisadi və siyasi islahatlar aparılır. Regionda əksər ölkələrdə siyasi sabitlik və təhlükəsizlik sahəsində ciddi narahatçılıqlar var. Cənab İlham Əliyev idarəçiliyi dövründə Azərbaycanın iqtisadi inkişafında, ölkədə sabitliyin təmin olunmasında, müstəqilliyin möhkəmləndirilməsində, ordu quruculuğunda, Azərbaycanın beynəlxalq nüfuzunun möhkəmlənməsində, Azərbaycanın düşmənlərinə qarşı mübarizədə Onun misilsiz xidmətləri olub. Bundan sonra da, bu vəzifələri yalnız Onun qüdrəti, ağılı, enerjisi və qayğısı ilə yerinə yetirmək mümkündür. Məhz buna görə də, Yeni Azərbaycan Partiyası yekdilliklə Onun Prezidentliyə namizədliyini irəli sürdü. Əminəm ki, bütün sahələrdə qələbə Cənab İlham Əliyevlədir. Xalq bu dəfə də seçimində dəyişiklik etməyəcək. Hər kəs yüksək fəallıqla seçkilərdə iştirak etməklə, milli təhlükəsizliyimizin qarantı və iqtisadi inkişafımızın təminatçısı, YAP Sədri Cənab İlham Əliyevin yenidən prezident seçilməsinə dəstək olacaq.

**GÜLYANƏ**

# Arxiyepiskop Paul Riçard Gallager: "Azərbaycanda tolerantlığın səviyyəsi və dini icmalara hörmət təqdirəlayiqdir"

***Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov ölkəmizdə rəsmi səfərdə olan Müqəddəs Taxt-Tacın xarici dövlətlərlə əlaqələr üzrə katibi arxiyepiskop Paul Riçard Gallagerin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.***



Xarici İşlər Nazirliyinin mətbuat xidmətindən bildiriblər ki, görüşdə tərəflər Azərbaycan və Vatikan arasında əlaqələrin inkişafından məmnun olduqlarını ifadə ediblər. 1997-ci ildə 24-27 sentyabr tarixlərində Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin və 2015-ci il 6 mart tarixində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Vatikana rəsmi səfərlərinin, eləcə də Roma Papası II İoan Pavelin 2002-ci il mayın 22-də və Papa Fransiskin 2016-cı il oktyabrın 2-də ölkəmizə həyata keçirdikləri tarixi səfərlərin Azərbaycan-Vatikan əlaqələrində yeni mərhələ açdığı xüsusi vurğulanıb.

Azərbaycanın tarixən müxtəlif mədəniyyətlər və dinlərin nümayəndələrinin sülh şəraitində birgə yaşadığı məkan olduğunu bildirən nazir Elmar Məmmədyarov Azərbaycanın milli tolerantlıq ənənələri əsasında dünyada sülh şəraitində birgəyaşayış, qarşılıqlı hörmət və multikulturalizm ideyalarını təşviq etdiyini diqqətə çatdırıb. Bu xüsusda, ölkəmizin təşəbbüsü ilə keçirilən Beynəlxalq Humanitar Forum və Mədəniyyətlərarası və Dinlərarası Dialoq Forumunun əhəmiyyəti vurğulanıb.

Ölkəmizdə olmasından məmnunluğunu bildirən Paul Riçard Gallager Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən qəbul olunduğunu və görüşdə çox faydalı müzakirələrin aparıldığını bildirib. Azərbaycanda katolik icmasına göstərilə dəstək və qayğıya görə öz təşəkkürünü bildirən arxiyepiskop ölkəmizdə tolerantlığın səviyyəsini və digər dini icmalara hörməti yüksək qiymətləndirib.

2017-ci ilin Azərbaycanda "İslam Həmrəyliyi İli" elan olunduğunu bildirən Elmar Məmmədyarov Qafqaz Müsəlmanları İdarəsi və Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin birgə təşkilatçılığı ilə "2017 - İslam Həmrəyliyi İli: Dinlər və mədəniyyətlərarası dialoq" mövzusunda beynəlxalq konfransın keçirildiyini və Vatikan nümayəndəsinin sözügedən konfransda iştirakını təqdirəlayiq bir hal kimi qiymətləndirib.

Müqəddəs Taxt-tacın Mədəniyyət üzrə Pontifik Şurası ilə Heydər Əliyev Fondu arasında sıx əməkdaşlıq əlaqələrinin mövcud olduğunu qeyd edən tərəflər bu sahədə əməkdaşlığın daha da inkişafında Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın müstəsna rolunu qeyd ediblər. Heydər Əliyev Fondunun maliyyə dəstəyi ilə Vatikanda bir sıra tarixi abidələrin, ələlxüsus katakombaların bərpası məsələsi yüksək qiymətləndirilib.

Ölkəmizin orta əsr tarixi ilə bağlı Vatikanın arxivlərində çoxlu sayda qiymətli sənədlərin mövcud olduğunu xatırladan Elmar Məmmədyarov sözügedən yazıların üzə çıxarılmasında göstərdiyi dəstəyə görə Vatikana öz dərin təşəkkürünü bildirib və bu sahədə əməkdaşlığın davam etdirilməsinin vacibliyini vurğulayıb.

Görüşdə nazir Elmar Məmmədyarov həmkarına Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli üzrə danışıqlar prosesi, Azərbaycanın haqlı və ədalətli mövqeyi, habelə Ermənistanın Azərbaycanın işğal olunmuş ərazilərində xalqımıza aid maddi-mədəni və dini irsin talan və məhv edilməsi siyasəti haqqında məlumat verib. Habelə Ermənistan tərəfindən Suriyadan olan erməni əsilli qaçqınların qeyri-qanuni şəkildə Azərbaycanın işğal olunmuş ərazilərində yerləşdirilməsinə toxunan nazir Elmar Məmmədyarov bildirib ki, işğal olunmuş ərazilərdə məskunlaşma siyasətinin aparılması və məqsədyönlü şəkildə demoqrafik tərkibin dəyişdirilməsi cəhdləri beynəlxalq humanitar hüququn kobud şəkildə pozulmasıdır. Nazir Ermənistanın işğalı nəticəsində bir milyondan çox azərbaycanlının etnik təmizləməyə məruz qaldığını diqqətə çatdırıb.

Görüşdə bu gün dünyada artmaqda olan rasizm, ksenofobiya, etnik və dini zəmində nifrət meyilləri, münaqişələrə dini don geyindirmək cəhdlərinə münasibətdə qarşılıqlı narahatlıq ifadə edilib. Həmçinin tərəflər Azərbaycan və Vatikan arasında əlaqələrin inkişafı, yüksək səviyyəli qarşılıqlı səfər mübadiləsi kimi məsələlər ətrafında fikir mübadiləsi aparıblar.

# Dövlət başçısının tapşırıqlarının icrası ilə bağlı İqtisadiyyat Nazirliyində geniş kollegiya iclası keçirilib

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın icrasının dördüncü ilinin yekunlarına həsr olunmuş konfransda verdiyi tapşırıqların icrası ilə bağlı İqtisadiyyat Nazirliyində geniş kollegiya iclası keçirilib.***



İqtisadiyyat Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, nazirliyin struktur bölmələrinin və tabeliyindəki qurumların rəhbərlərinin iştirakı ilə keçirilmiş iclasda iqtisadiyyat naziri, kollegiyanın sədri Şahin Mustafayev vurğulayıb ki, ölkədə davamlı inkişafın təmin olunmasında regionların sosial-iqtisadi inkişafı dövlət proqramları mühüm əhəmiyyət kəsb edir. 2004-cü ildən uğurla icra olunan bu proqramlar şəhər və rayonların simasını köklü şəkildə dəyişib, regionların potensialının, infrastruktur təminatının, kommunal xidmətlərin keyfiyyətinin, biznes və investisiya mühitinin yaxşılaşmasına və əhalinin rifahının yüksəlməsinə şərait yaradıb. 2017-ci ildə regionların inkişafına 4,5 milyard manat vəsait yönəldilib, dövlət başçısı bölgələrə etdiyi 30-dan çox səfər çərçivəsində müxtəlif təyinatlı 130-dək obyektlə tanış olub, açılış və təməlqoyma mərasimlərində iştirak edib, tapşırıq və tövsiyələrini verib. Dövlət başçısının imzaladığı 74 sərəncamla şəhər və rayonların sosial-iqtisadi inkişafının sürətləndirilməsinə 368 milyon manat vəsait ayrılıb. Ümumilikdə, 2004-2017-ci illərdə regionların inkişafına 67,5 milyard manat (77,8 milyard dollar) vəsait yönəldilib.

2017-ci ildə regionlarda bir sıra sənaye müəssisələri açılıb, mövcud müəssisələrin istehsal gücü artırılıb, mühüm sənaye obyektlərinin tikintisinə başlanıb, sənaye parkları və məhəllələrinin təşkili işləri davam etdirilib. Ötən il 1300 kilometrə yaxın avtomobil yolu, 24 körpü və yolötürücüsü tikilib və ya təmir olunub. 863 kilometr kənd yolu inşa olunub, 3 su və 1 günəş elektrik stansiyası, 1500-dən çox transformator və 56 yarımstansiya istifadəyə verilib, 2100 kilometrdən çox qaz xətti çəkilib və ya əsaslı təmir olunub, 20 rayon üzrə 67 yaşayış məntəqəsi təbii qazla təmin edilib, qazlaşdırma səviyyəsi 93 faizə çatdırılıb. Həmçinin regionlarda 1200 kilometrdən çox su, 383 kilometr kanalizasiya xətti çəkilib, 38 içməli su artezian quyusu qazılıb və ya təmir olunub, 29 su anbarı inşa edilib, 103 yaşayış məntəqəsində modul tipli sutəmizləyici quraşdırılıb, suvarma üçün 248 subartezian quyusu qazılıb.

Dövlət başçısının Azərbaycan vətəndaşının rifahının daha da yüksəlməsinə istiqamətlənmiş sosial-iqtisadi siyasətinə uyğun olaraq, bütün sosial layihələr icra edilib, regionlarda 121 məktəb, o cümlədən 106 modul tipli məktəb, 22 uşaq bağçası, 22 səhiyyə, 6 idman, 37 mədəniyyət və digər sosial obyekt tikilib və ya əsaslı təmir olunub, 2300 məcburi köçkün ailəsi yeni evlərə, mənzillərə köçürülüb.

Kollegiya iclasında diqqətə çatdırılıb ki, Prezident İlham Əliyev "Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın icrasının dördüncü ilinin yekunlarına həsr olunmuş konfransda proqram çərçivəsində görülən işləri yüksək qiymətləndirib, qarşıdakı dövr üçün mühüm vəzifələr müəyyənləşdirib.

Dövlət başçısının sənayenin inkişafı ilə bağlı tapşırıqlarının icrası ilə əlaqədar İqtisadiyyat Nazirliyi tərəfindən görülən və nəzərdə tutulan tədbirlər barədə məlumat verən Şahin Mustafayev sənaye parkları və məhəllələrinin təşkili və genişləndirilməsi işlərinin, eləcə də digər rayonlarda yeni sənaye parklarının yaradılması imkanlarının araşdırılmasının sürətləndirilməsi, sənaye zonalarına yeni rezidentlərin cəlb olunması barədə nazirliyin müvafiq qurumlarına konkret tapşırıqlar verib.

İclasda qeyd olunub ki, dövlət başçısının tapşırığına uyğun olaraq, Bakı Beynəlxalq Dəniz Ticarət Limanının tikintisi uğurla davam edir. Limanın birinci mərhələsi üzrə işlər bu ilin may ayınadək başa çatdırılacaq və bu fazada liman 15 milyon ton yük buraxılış qabiliyyətinə malik olacaq. İkinci mərhələdə limanın imkanları 25 milyon ton yükə və 500 min konteynerə çatacaq, növbəti mərhələdə isə 1 milyon konteynerədək artacaq. Paralel olaraq Ələt Azad Ticarət Zonasının təşkili istiqamətində də müvafiq tədbirlər görülür.

"Azərxalça" ASC-nin istehsal sahələrinin artırılması işləri davam etdirilir, 10 rayonda xalça müəssisələrinin tikintisi yekunlaşıb, daha 10 müəssisənin, 5 yun və boyaq maddələri məntəqələrinin tikintisi həyata keçirilir, Yunəyrici Boyaq fabrikinin tikintisinə başlanılması da xalçaçılığın xammal bazasının yaradılmasına töhfə verəcək.

Bildirilib ki, Prezident İlham Əliyevin yeni həyat bəxş etdiyi Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndində Azərbaycan hökuməti və ABŞ tərəfindən birgə həyata keçirilən Yem Emalı Müəssisəsinin tikintisi başa çatdırılıb və fermerlərin istifadəsinə verilib. Türkiyə ilə də Cocuq Mərcanlıda kənd təsərrüfatı sahəsində birgə layihənin reallaşdırılması işlərinə başlanılıb.

Kollegiya iclasında yeni istehsal və emal müəssisələrinin yaradılmasının və mövcud istehsal sahələrinin potensialının artırılması və genişləndirilməsinin, yerli istehsal hesabına özünütəminetmə səviyyəsinin yüksəldilməsinin dövlət başçısının daim diqqət mərkəzində olduğu vurğulanıb.

Diqqətə çatdırılıb ki, ötən il müxtəlif sahələr üzrə yeni müəssisələr istifadəyə verilib, bir sıra müəssisələrin tikintisi davam etdirilib və yeni müəssisələrin təməli qoyulub, xüsusilə idxalı əvəz edən məhsulların yerli istehsalının təşkili, eləcə də ənənəvi sahələrin inkişafı istiqamətində mühüm addımlar atılıb. Bu tədbirlər çərçivəsində Sumqayıt Kimya Sənaye Parkında tikilən tütün məmulatlarının istehsalı fabriki bu il istifadəyə veriləcək, bununla da bu sahədə idxaldan asılılıq əhəmiyyətli dərəcədə azalacaq. Bundan başqa, istehsal zəncirinin tam tamamlanması üçün tütün qəbulu məntəqələrinin və qurutma kameralarının yaradılması, mövcud siqaret fabriklərinin gücünün artırılması işləri də davam etdirilir.

Sumqayıt Sənaye Parkının rezidenti olan "SOCAR Polymer"in polipropilen və yüksək sıxlıqlı polietilen qurğularının 2018-ci ildə istifadəyə verilməsi ölkədə yeni sənaye sahələrinin, iş yerlərinin və əlavə dəyərin yaradılmasına imkan verir.

Kollegiya iclasında sahibkarlarla keçirilən görüşlərdə və digər formatlı tədbirlərdə "SOCAR Polymer" zavodunun imkanları barədə mütəmadi olaraq məlumatlandırılma tədbirlərinin görülməsi, yerli xammaldan istifadəyə əsaslanan istehsal müəssisələrinin yaradılmasının təşviq olunması istiqamətində konkret vəzifələr müəyyənləşdirilib.

Dövlət başçısının tapşırıqlarına uyğun olaraq, İqtisadiyyat Nazirliyi yuyucu vasitələrin istehsalının təşkilinə, mövcud su istehsalı müəssisələrinin və şərab zavodlarının tam gücü ilə işləməsinə, bu sahə-

# Dövlət başçısının tapşırıqlarının icrası ilə bağlı İqtisadiyyat Nazirliyində geniş kollegiya iclası keçirilib

də qablaşdırmaya, yeni süd zavodlarının tikintisi və mövcud süd zavodlarında kərə yağı xətlərinin yaradılmasına dair araşdırmalar aparacaq və aidiyyəti qurumlarla birlikdə təkliflər hazırlanacaq.

Kollegiya iclasında dövlət başçısının tapşırığına uyğun olaraq, suvenir istehsalının genişləndirilməsi, sahəvi assosiasiyalarla görüşlərin təşkili və qısa müddət ərzində bu sahədə təkliflərin hazırlanması, suvenir istehsalına güzəştli kreditlərin verilməsi və digər dövlət dəstəyi tədbirlərinin davam etdirilməsi barədə nazirliyin müvafiq qurumları qarşısında konkret istiqamətlər müəyyən edilib.

İclasda vurğulanıb ki, ərzaq təhlükəsizliyinin möhkəmləndirilməsində xüsusi əhəmiyyətə malik iri fermer təsərrüfatlarının yaradılması işləri davam etdirilir. Hazırda ölkənin 28 rayonunda 43 aqroparkın yaradılması həyata keçirilir ki, bunlardan 15-i 2018-ci ildə istifadəyə veriləcək. Aqroparkların yaradılması ərzaq təhlükəsizliyinin və emal sənayesinin davamlı olaraq yüksək keyfiyyətli və aşağı maya dəyərli xammalla təmin edəcək, yerli məhsulların daxili və xarici bazarlarda rəqabət qabiliyyətini daha da artıracaq.

Kollegiya iclasında digər regionlarda da yeni iri fermer təsərrüfatlarının və aqroparkların yaradılması imkanlarının araşdırılması barədə nazirliyin müvafiq qurumlarına tapşırıqlar verilib.

İqtisadiyyat naziri bu il də əvvəlki illərdə olduğu kimi fermerlərə güzəştli kreditlərdən və aqrolizinq xidmətlərindən daha geniş istifadə imkanlarının yaradılacağını diqqətə çatdırıb, arıçılıq sahəsində qablaşdırmanın önəmini qeyd edərək, qablaşdırma müəssisələrinin yaradılmasının təşviq edilməsi və nazirlik tərəfindən lazımi dəstəyin göstərilməsi barədə tapşırıq verib.

Kollegiya iclasında kənd təsərrüfatının subsidiyalaşdırılması və vergilərdən azad olunması, texnika və gübrələrin güzəştli şərtlərlə verilməsi, lizinq xidmətlərinin göstərilməsi, investisiyaların və ixracın təşviqi, lisenziyalaşdırmanın təkmilləşdirilməsi, yoxlamaların dayandırılması, yerli istehsalın stimullaşdırılması və digər dövlət dəstəyi mexanizmlərinin regional inkişafın sürətlənməsində əhəmiyyətli olduğu vurğulanıb. Qeyd olunub ki, 2017-ci ildə 1953 sahibkara geri qaytarılan kreditlər hesabına 146 milyon manat güzəştli kredit verilib. Bunun 68 faizi aqrar sektorun, 32 faizi isə müxtəlif sənaye və digər sahələrin inkişafına, 65 faizi isə regionların payına düşür. 2018-ci ildə geri qaytarılan vəsaitlər hesabına sahibkarlara 170 milyon manatdan artıq güzəşli kreditin verilməsi təmin ediləcək.

İnvestisiya qoyuluşunun təşviqi məqsədilə indiyədək 220 sahibkarlıq subyektinə 244 investisiya təşviqi sənədi verilib və bu layihələr nəticəsində yerli istehsala 2 milyard manatdan artıq investisiya yatırılacaq, 16 mindən çox yeni iş yeri açılacaq. Layihələrin 87 faizi regionların payına düşür. Maarifləndirmə məqsədilə regionlarda 5300-dək sahibkarın iştirakı ilə 36 işgüzar forum, 87 treninq keçirilib və 588 məsləhət xidməti göstərilib.

Vurğulanıb ki, Kiçik və Orta Sahibkarlığın İnkişafı Agentliyi və bu çərçivədə iri rayon və şəhərlərdə yaradılacaq "Kiçik və orta sahibkarlıq evləri" kiçik və orta sahibkarlığın rolunu və rəqabət qabiliyyətini artıracaq, dövlət xidmətlərinə vahid məkan prinsipi əsasında çıxışı təmin edəcək.

Kollegiya iclasında agentliyin fəaliyyətinin təşkili işlərinin sürətləndirilməsi istiqamətində vəzifələr müəyyənləşdirilib.

Dövlət başçının tapşırığına uyğun olaraq, kollegiya iclasında iri biznes qurumlarının sosial məsuliyyətinin artırılması, o cümlədən sahibkarlar arasında kiçik biznesə, ailə biznesinə dəstək göstərilməsinin təşviq olunması, bu məsələ ilə bağlı aidiyyəti qurumlarla birlikdə təkliflərin hazırlanması və iri sahibkarlıq subyektləri ilə bu mövzuda görüşlərin keçirilməsi və kiçik sahibkarlarla işgüzar əlaqələrin yaradılması barədə nazirliyin müvafiq strukturları üçün konkret vəzifələr müəyyənləşdirilib.

İclasda qeyd edilib ki, dövlət başçısının əsasını insan amili təşkil edən sosial siyasətinə uyğun olaraq, əvvəlki illərdə olduğu kimi, 2018-ci ildə də dövlət proqramları çərçivəsində əhalinin sosial müdafiəsi tədbirləri, sosial infrastruktur - məktəblərin, uşaq bağçalarının, tibb ocaqlarının, olimpiya idman komplekslərinin tikintisi, əhaliyə göstərilən kommunal xidmətlərin səviyyəsinin yaxşılaşdırılması tədbirləri davam etdiriləcək. Qeyd edilib ki, hazırda 200-dən çox sosial obyektin təmir-tikinti işləri davam etdirilir. Bu il 137 modul tipli məktəbin tikintisi nəzərdə tutulur ki, bu da ucqar kəndlərdə belə məktəb probleminin tam həll olunmasını təmin edəcək. Bu il Mingəçevir, İmişli və Şəkidə yeni "ASAN xidmət" mərkəzləri istifadəyə veriləcək. Hazırda isə regionlarda 7 "ASAN xidmət" mərkəzi fəaliyyət göstərir.

İclasda qeyd olunub ki, qeyri-neft ixracının və idxalı əvəz edən məhsul istehsalının artırılması, ixracın genişləndirilməsi, investisiyaların cəlb edilməsi regionların davamlı inkişafına öz töhfəsini verəcək. Bu baxımdan, kollegiya iclasında ixracatçı şirkətlərə dəstəyin gücləndirilməsi, müvafiq sahələrdə yaradılmış assosiasiyalarla əməkdaşlığın genişləndirilməsi istiqamətində nazirliyin strukturları üçün vəzifələr müəyyənləşdirilib.

Kollegiya iclasında "Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın icrasının dördüncü ilinin yekunlarına həsr olunmuş konfransda dövlət başçısı tərəfindən verilmiş tapşırıqların tam, vaxtında və keyfiyyətlə icrasının təmin olunması üçün İqtisadiyyat Nazirliyi tərəfindən görüləcək işlər geniş təhlil olunub, nazirliyin struktur bölmələrinə göstərişlər verilib, tapşırıqların icrası məqsədilə hazırlanmış kompleks Tədbirlər Planının layihəsi müzakirə edilib. Eyni zamanda, təkliflər nəzərə alınmaqla təkmilləşdiriləxrək təsdiq olunması qərara alınıb, dövlət başçısının tapşırığına uyğun olaraq növbəti Dövlət Proqramının layihəsinin hazırlanması barədə nazirliyin müvafiq struktur bölmələri üçün istiqamətlər müəyyənləşdirilib.

## Müşfiq Ələsgərli: "Azərbaycan İlham Əliyevin prezidentliyi dövründə regionun liderinə çevrilib"



"Azərbaycanın son 15 il müddətində, yəni İlham Əliyevin prezidentliyi dövründə çox yüksək bir inkişaf yolu keçdiyini təkcə ölkə daxilindəki mənbələr deyil, beynəlxalq analitik mərkəzlər də etiraf edirlər. Bu inkişaf siyasi, iqtisdi, enerji və təhlükəsizlik sahələri daxil olmaqla, bütün sferaları əhatə edir". Bunu SİA-ya açıqlamasında Jurnalistlərin Həmkarlar İttifaqının sədri, Mətbuat Şurasının sədr müavini Müşfiq Ələsgərli deyib.

Sədr müavininin sözlərinə görə, bu müddət ərzində Azərbaycan təkcə öz iqtisadi dayaqlarını, enerji təhlükəsizliyini möhkəmləndirən addımlar atmayıb, həm də, iqtisadi baxımdan bütün regionun taleyini dəyişəcək layihələrə müəlliflik edib, onları gerçəkləşdirib: "Yeni Azərbaycan İlham Əliyevin prezidentliyi dövründə regionun liderinə çevrilib, dünyanın siyasi, iqtisadi, enerji təhlükəsizliyi mənzərəsini dəyişə bilən bir gücə sahib olub. Dünyanın mənzərəsini dəyişən nəqliyyat layihələri, enerji layihələri məhz Azərbaycanın və məxsusi olaraq İlham Əliyevin iradesi nəticəsində reallığa çevrilib. Bütün bunlar beynəlxalq analitik mərkəzlər tərəfindən etiraf edilir. Mən burada bir məqama da diqqət yetirilməsini vacib sayıram: Azərbaycanın yerləşdiyi region dünyanın ən ziddiyyətli regionudur; münaqişələrin bol və aktiv olduğu bir bölgədir. Müharibələr, dağıntılar, insan qırğınları ətraf region üçün bir bəlaya çevrilib. Bu dövrdə Azərbaycanda sabitliyin qorunub saxlanılması, ölkəmizin təlatümlərdən yan keçməsi yalnız İlham Əliyevin müəyyən etdiyi siyasi kurs nəticəsində mümkün olub.

Məncə, sabitliyə, inkişafa tərəfdar olan bütün vətəndaşlar, seçicilər bu siyasi kursun davamına, İlham Əliyevin yenidən prezident seçilməsinə səs verəcəklər. Bu arada mən media ictimaiyyətinin də fikirlərini ifadə etmək istərdim. Azərbaycan mediası məhz bu 15 il müddətində özünün ən yüksək inkişaf mərhələsinə qədəm basıb. İlham Əliyev prezidentliyi dövründə medianın inkişafına aid ən çox sərəncam imzalamış bir şəxsdir. Bu baxımdan hesab edirəm ki, media ictimaiyyəti də İlham Əliyevin, Jurnalistlərin dostunun növbəti dövrdə prezidentlik fəaliyyətinin davamına səs verəcəklər".

## Astara-Astara dəmir yolunun istifadəyə verilməsi Ermənistanı ciddi narahat edir



İran-Azərbaycan münasibətlərinin yüksələn xətlə inkişaf etməsi Ermənistanı çox ciddi şəkildə narahat etməyə başlayıb. Fevralın 8-də Rusiyadan gələn ilk yük qatarının Astara (Azərbaycan)-Astara (İran) dəmir yolu ilə keçərək İrana daxil olması bu narahatçılığı daha da artırıb. Ermənistan mətbuatı, sözün əsl mənasında, həyəcan təbili çalaraq ölkənin təcrid olunmuş vəziyyətə düşməsi haqqında xəbərlər verir.

Ermənistanın 1in.am analitik saytı İran ilə Azərbaycanın dəmir yollarını birləşdirən Astara-Astara dəmir yolunun istifadəyə verilməsini rəsmi Yerevan üçün qorxulu təhlükə hesab edir. Sayt yazır ki, bu yol İran, Azərbaycan və Rusiyanı iqtisadi baxımdan daha da yaxınlaşdıracaq. Şimal-Cənub Beynəlxalq Nəqliyyat Dəhlizi çərçivəsində hər 3 dövlətin mənafeyi birləşir. Lakin Ermənistan yenə də regionda həyata keçirilən beynəlxalq əhəmiyyətli iqtisadi layihədən kənarda qaldı.

Qeyd olunur ki, Rusiya, Azərbaycan və İran rəhbərlərinin üçtərəfli formatda görüşlər keçirərək daha geniş iqtisadi əlaqələr qurmaq haqqında müzakirələr aparmaları Ermənistanın tam təcrid olacağından xəbər verir. Azərbaycan ildən-ilə regionun daha fəal və əhəmiyyətli aktoruna çevrilir. İqtisadiyyatının böhran vəziyyətində olmasından əziyyət çəkən Ermənistan isə regiondakı heç bir prosesə təsir göstərə bilmir. Vəziyyətin bu həddə çatmasında ölkə hakimiyyətini günahkar bilən sayt qeyd edir ki, belə davam etsə Ermənistan nəinki iqtisadi, eyni zamanda, siyasi cəhətdən də blokadaya alınacaq.

Sayt diqqətə çatdırır ki, bu gün Ermənistan çox alçaldıcı vəziyyətdədir və siyasi qərarları müstəqil şəkildə qəbul edə bilmir. Lakin Azərbaycan İran ilə Rusiya və İran ilə Avropa arasında körpü rolu oynayaraq nüfuz və zəmanət qazanıb. Bildirilir ki, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsində vəziyyətin qeyri-müəyyən qalması Ermənistanın xeyrinə deyil. Rəsmi Yerevan bunu başa düşsə də, müstəqil qərar qəbul etmək iqtidarında deyil. Zaman Ermənistanın ziyanına işləyir. Azərbaycan isə iqtisadi inkişafını davam etdirir.

# Xocalı soyqırımının tanınması Azərbaycanın xarici siyasətinin əsas istiqamətlərindəndir

***Ermənistanın Azərbaycana qarşı işğalçılıq və soyqırımı siyasətinin tərkib hissəsi olan, beynəlxalq hüququn norma və prinsiplərinin, insan hüquq və azadlıqlarının kütləvi şəkildə və kobudcasına pozulması ilə nəticələnən Xocalı soyqırımından artıq 26 il ötür. Bu soyqırımı erməni millətçilərinin və onların havadarlarının Azərbaycan xalqına qarşı uzun müddət davam edən etnik təmizləmə və soyqırımı siyasətinin daha bir dəhşətli nümunəsidir.***

Beynəlxalq hüquqa əsasən, genosid ən ağır cinayətlərdəndir. Genosidin hüquqi əsası bir sıra sənədlərdə öz əksini tapmışdır. BMT Baş Məclisinin 1946-cı il 11 dekabr tarixli qətnaməsində qeyd olunur ki, genosid insan qruplarının yaşamaq hüququnu pozmaqla insan mənliyini təhqir edir, bəşəriyyəti insanlar tərəfindən yaradılan maddi və mənəvi dəyərlərdən məhrum edir. Xocalıda törədilən əməllər BMT-nin məqsəd və vəzifələrinə, ümumbəşəri dəyərlərə tamamilə ziddir. BMT-nin Təhlükəsizlik Şurasının dörd qətnaməsinə, Avropa Parlament Assambleyasının, İslam Əməkdaşlıq Təşkilatının, Qoşulmama Hərəkatının və eləcə də, digər beynəlxalq qurumların qərarlarına baxmayaraq, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi beynəlxalq hüquq normalarına uyğun, ölkəmizin ərazi bütövlüyü çərçivəsində öz həllini bu günədək tapmayıb.

Ermənilərin azərbaycanlılara qarşı yürüdülən soyqırımı siyasətinin tarixi əsrləri əhatə edir. Hadisələri ardıcıllıqla izləsək, görərik ki, Azərbaycanın başına gətirilən olaylar tarixdə, demək olar ki, eyni ssenari üzrə cərəyan edib. Artıq dərk edirik ki, ermənilər tarixən təkcə bizlərə qarşı deyil, bütün türk dünyasına qarşı torpaq iddiaları ilə çıxış edib və indi də etməkdədirlər. Belə ki, tarixi reallıqlar, bizə deməyə əsas verir ki, 1905-1907, 1918-1920, 1948-1953-cü illərdə Cənubi Qafqazdakı tarixi ərazilərində etnik təmizlənmə və soyqırımı siyasətinə məruz qalan yüz minlərlə Azərbaycan türkləri erməni daşnakları tərəfindən kütləvi surətdə qətlə yetirilmiş və ata-baba yurdlarından deportasiya edilmişlər.

Ötən əsrin ən böyük faciələrindən biri kimi tariximizdə iz salan Xocalı soyqırımı XX yüzillikdə insanlığa qarşı törədilən ən amansız faciələrdən sayılır. 1992-ci il fevralın 25-dən 26-na keçən gecə törədilən Xocalı soyqırımı xalqımızın növbəti faciəsini yaşadığı bir tarixdir. Soydaşlarımızın xüsusi amansızlıqla qətlə yetirildiyi o qış gecəsinin dəhşətli anları, hər bir azərbaycanlının qan yaddaşına elə çökmüşdür ki, bu hadisələri kiminsə unutmağına inanmaq qeyri-mümkündür. Azərbaycan Prezidenti İlham Əliyevin vurğuladığı kimi, XX əsrin sonunda bütün dünyanın gözü qarşısında törədilmiş, qəddarlığı və amansızlığı ilə fərqlənən Xocalı soyqırımı erməni millətçilərinin təcavüzkar siyasətinin ən qanlı səhifəsi olmuşdur: "Bu ağır cinayətə görə siyasi-hüquqi məsuliyyət birbaşa Ermənistanın o zamankı və indiki rəhbərliyinin, Dağlıq Qarabağdakı separatçı rejimin üzərinə düşür".

Xocalı soyqırımı təkcə bizlərin deyil, bütün bəşəriyyətin faciəsidir. Xocalı haqqında həqiqətin dünyada bilinməsi, bu faciənin xalqımıza qarşı soyqırımı aktı kimi tanınması üçün Azərbaycan dövləti bütün zəruri addımları atır. Bu sahədə məqsədyönlü fəaliyyət Ümummilli Lider Heydər Əliyevin Azərbaycanda siyasi hakimiyyətə qayıdışından sonra başlanmışdır. Ulu Öndərin təşəbbüsü ilə Xocalı soyqırımına siyasi-hüquqi qiymət verilmiş, fevralın 26-sı "Xocalı soyqırımı günü" elan edilmişdir.




2009-cu ildə Heydər Əliyev Fondunun vitse-prezidenti, İslam Konfransı Gənclər Forumunun mədəniyyətlərarası dialoq üzrə baş əlaqələndiricisi Leyla xanım Əliyevanın təşəbbüsü ilə başlanmış "Xocalıya ədalət" beynəlxalq kampaniyası bu istiqamətdə təbliğat işini daha da fəallaşdırmışdır. Faciə ilə əlaqədar dəhşətli faktlar bu kampaniya çərçivəsində aparılan işlər sayəsində geniş beynəlxalq ictimaiyyətə çatdırılmış, planetin bütün guşələrində milyonlarla insan erməni millətçilərinin əsl simasına bələd olmuşdur.

Bu il bizlər, Xocalı soyqırımının 26-cı anım ilini qeyd edirik. Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri Ramiz Mehdiyevin sərəncamı ilə "Xocalı soyqırımının iyirmi altıncı ildönümünün keçirilməsinə dair tədbirlər planı" təsdiq edilib. Tədbirlər planında Bakının Xətai rayonunda, Goranboy rayon mərkəzində və Ağcakənd qəsəbəsində Xocalı soyqırımı qurbanlarının xatirəsinə ucaldılmış abidələrin önünə əklil qoyulması mərasimlərinin keçirilməsi və ictimaiyyət nümayəndələri tərəfindən Şəhidlər Xiyabanının ziyarət edilməsi nəzərdə tutulur. Qeyd olunan sənəddə Azərbaycanın xarici ölkələrdəki səfirliklərində, nümayəndəliklərində, konsulluqlarında və diaspor təşkilatlarında soyqırımı ilə bağlı tədbirlərin təşkili, xarici və yerli kütləvi informasiya vasitələri, o cümlədən, teleradio kanallarında qanlı qırğını əks etdirən materialların yayılması və internet şəbəkəsində, mütəmadi olaraq, yenilənməsi öz əksini tapıb.

Tədbirlər planına ölkəmizdə fəaliyyət göstərən dini konfessiya və qurumlar tərəfindən Xocalı soyqırımı qurbanlarının xatirəsinə həsr olunan anım mərasimlərinin təşkil edilməsi, idarə və təşkilatlarda, təhsil və mədəniyyət müəssisələrində xatirə gecələri, foto-rəsm sərgiləri və şahidlərlə görüşlərin keçirilməsi də daxil edilib.

Təbii ki, bu tarixi gündə törədilən vəhşiliklər insanlarda erməni terrorizminə, onların işğalçılıq siyasətinə, insanlığa sığmayan əqidə və məsləkinə qarşı dərin nifrət hissi oyadır. Soyqırımı milli düşüncə tərzimizə, milli dəyərlərimizə, milli əxlaqımıza o dərəcə nüfuz etmişdir ki, faciənin törəmə tarixini keçmiş kimi qəbul edə bilmirik. Xalqın qan yaddaşında kök salmış hadisələr heç zaman bizi tərk etməyəcək və zaman-zaman ağrıdacaqdır.

Xatırladıq ki, yeddi min əhalisi olan Xocalı, erməni terrorçu qrupları keçmiş SSRİ-nin 4-cü ordusunun 23-cü diviziyasının tərkibində olan 366-cı alayının köməyi ilə müxtəlif növ silahlardan atəşə tutularaq, yerlə yeksan edilmişdir. Qəddarcasına həyata keçirilmiş terror əməliyyatı nəticəsində, 613 nəfər şəhid olmuş, onlardan 56-cı xüsusi qəddarlıqla qətlə yetirilmiş, 487 nəfər ağır yaralanmış, 1430 nəfər əsir götürülərək amansız işgəncələrə məruz qalmış, onların 135 nəfərinin taleyi hələ də məlum deyildir. Şəhid olanların 106 nəfəri qadın, 63 nəfəri uşaq, 70 nəfəri isə qocalar olmuşdur. 8 ailə tamamilə məhv edilmiş, 27 ailənin hərəsindən yalnız bir nəfər sağ qalmışdır. Soyqırımı aktı zamanı öz torpaqlarını tərk etməyə məcbur olan Xocalı sakinləri hazırda ölkəmizin 40 rayonunda məskunlaşmışlar.

Beləliklə, dünyanın gözü qarşısında ermənilər bəşəriyyət tarixində ən ağır cinayətlərdən birini - Xocalı soyqırımını törətdilər. Xocalıda terror əməliyyatının planı əvvəlcədən hazırlanmışdı. Xocalıda erməni terrorizminin amansızlığını təsdiq edən faktlardan biri də odur ki, terror əməliyyatı zamanı istifadəsi qadağan olun xüsusi təhlükəli kütləvi qırğın silahlarından geniş istifadə olunmasıdır. Belə ki, vaxtilə Novosibirsk şəhərində "Suxoy" Hərbi-Sənaye Kompleksində baş konstruktor işləyən Mixail Poqosyan keçmiş SSRİ MN-in baş qərargahında ixtira etdiyi yeni mərmilərin radiusunu, hədəfdəymə məqamlarını sınaqdan çıxarmaq üçün ən gözəl coğrafi cəhətdən dəyərli yer-məkan Azərbaycanın qərb zonasını təklif etmişdir və Xocalı seçilmişdir. Xocalı şəhərində həyata keçirilən genişmiqyaslı soyqırımı zamanı SSRİ-nin hərbi-sənaye komplekslərində möhtəşəm yer tutan "T-80" tanklarının mühərriki, tərkibində kimyəvi silahlara məxsus başlığı olan mərmilər, Kalaşnikov avtomatına məxsus yeni güllələr, vərəm və "Sibir xorası" əleyhinə vaksinlər və zirehli geyimlər sınaqdan çıxarılıb. Beynəlxalq ictimaiyyət bu hadisə ilə yaxından tanış olsa da, təəssüflər olsun ki, vəhşiliklərə bəzi hallarda göz yumur.

Bu gün dünya ictimaiyyətinə Azərbaycan həqiqətləri geniş şəkildə çatdırılır. Dünya insanı Qarabağda, Xocalıda baş verən olayları layiqli və düzgün qiymətləndirir. Bu gün Xocalı soyqırımının tanınması Azərbaycanın xarici siyasətinin əsas istiqamətlərindən biri kimi müəyyənləşdirilmişdir. Xocalı həqiqətlərinin dünyaya çatdırılması, beynəlxalq aləmdə yayılması, eləcə də, bu soyqırımına obyektiv qiymət verilməsi istiqamətində, davamlı olaraq, addımlar atılır. Aparılan bu uğurlu siyasətin nəticəsidir ki, dünya ölkələrinin bir qismi tərəfindən Xocalı soyqırımının rəsmən tanıması barədə qərar qəbul edilib. Faciəni qətliam kimi tanıyan ABŞ ştatları - Texas ştatı, Nyu-Cersi ştatı, Corciya ştatı, Men ştatı, Nyu-Meksiko ştatı, Arkanzas ştatı, Missisipi ştatı, Oklahoma ştatı və başqa ştatları qətnamə qəbul ediblər.

Bildiyimiz kimi, belə bir faciəyə siyasi-hüquqi qiymət vermək istəməyən dövlətlər də var. Təbliğat və təşviqatı daha da gücləndirilməliyik ki, haqq səsimizi dünyaya lazımı səviyyədə çatdıra biləк. Bu gün, təbii ki, Avropa dillərində çap olunan kitablar, çəkilən filmlər və s. Xocalı həqiqətləri ilə dünya ictimaiyyətini baş-başa qoyur. Beynəlxalq qurumlar qarşısında fikirlərimizi qətiyyətlə söyləyə bilirik. Xocalı soyqırımı dünya ictimaiyyətinə çatdırılması və bu istiqamətdə gerçəkləşən layihələrin artıq coğrafi məkanı ilbəil genişlənir. Bu, Azərbaycanın dünyada formalaşan imicinin məntiqidir.

Xocalı soyqırımı təkcə Azərbaycanın deyil, bütün dünyanın və bəşərin faciəsidir. Ermənistan münaqişə ilə bağlı qəbul edilmiş beynəlxalq sənədlərin müddəalarını yerinə yetirməli, Azərbaycanın ərazi bütövlüyü bərpa olunmalıdır. Dinc insanları məhv edən cinayətkarlar tezliklə ədalət məhkəməsi qarşısında cavab verməli və layiqli cəzalarını almalıdırlar. Azərbaycan Prezidenti Cənab İlham Əliyevin bildirdiyi kimi, Xocalı soyqırımını həyata keçirənlər gec-tez ədalət məhkəməsi qarşısında cavab verərək, layiqli cəzalarını alacaq və şəhidlərimizin qanı yerdə qalmayacaqdır.

Azərbaycan xalqı işğal altındakı bütün torpaqlarını yağı düşməndən tezliklə azad edəcək və ölkəmizin ərazi bütövlüyü bərpa olunacaqdır.

***Nəzakət ƏLƏDDİNQIZI***

## Dövlət sərhədində növbəti təxribat törədən düşmən öz avtomobil texnikasını yandıraraq geri çəkilib

Düşmən tərəfinin Azərbaycan-Ermənistan dövlət sərhədini pozmaq məqsədilə Qazax rayonu istiqamətində həyata keçirdiyi növbəti təxribatı uğursuzluqla nəticələnib.



Müdafiə Nazirliyinin mətbuat xidmətindən bildiriblər ki, fevralın 11-də səhər saatlarında hava şəraitinin dumanlı olmasından istifadə edən düşmən Ordumuzun ön xətt mövqeləri istiqamətində hərəkətə cəhd göstərib. Mövqelərimiz istiqamətində hərəkət edən Ermənistan silahlı qüvvələrinin kəşfiyyat-diversiya qrupuna məxsus "UAZ" markalı avtomobil texnikası bölmələrimiz tərəfindən xüsusi texniki müşahidə vasitələri ilə vaxtında aşkar edilərək nəzarətə götürülüb. Tərəfimizdən görülən qabaqlayıcı tədbirlər nəticəsində erməni kəşfiyyat qrupunun irəliləməsinin qarşısı dərhal alınıb. Geri çəkilməyə məcbur edilən düşmən qrupu ona məxsus avtomobil texnikasını ataraq təcili surətdə ərazini tərk edib. Öz mövqelərinə geri çəkilən düşmən ərazidə qalan "UAZ" avtomobilinə atəş açmaqla onu yandıraraq məhv edib.

## Ermənistan ordusundakı problemlər ölkədə ciddi narazılıqlar yaradıb

Dağlıq Qarabağda ölən erməni əsgərlərin çoxu yoxsul ailələrin uşaqlarıdır. Aparılan müşahidələr deməyə əsas verir ki, heç bir siyasətçinin və oliqarxın övladı təmas xəttində hərbi xidmətdə deyil. AZƏRTAC xəbər verir ki, bu fikirləri Ermənistanda fəaliyyət göstərən "Navur" ictimai təşkilatının sədri, hüquq müdafiəçisi Aram Nikoyan "ArmenianReport" saytına açıqlamasında bildirib.

Hüquq müdafiəçisi deyib ki, ötən həftə Tavuş istiqamətində ölən əsgər Ayk Kalantarayan yoxsul bir ailənin övladı idi. Bu ailənin hərbi münaqişə ilə bağlı heç bir məlumatı olmadığı halda, övladı erməni siyasi elitasının maraqlarını təmin etmək üçün təmas xəttində öldü.



Erməni gəncliyinin məhvə getdiyini deyən A.Nikoyan Ermənistan ordusundakı rüşvətxorluq və cinayət hallarını qeyd edib. O deyib ki, Dağlıq Qarabağda xidmətdə olan erməni əsgərlərin maddi-texniki imkanları yox dərəcəsindədir. Onların qidalanmasında problemlər var. Ordudakı ağır vəziyyət Ermənistan gənclərini qorxudur. Bu səbəbdən hərbi xidmətdən yayınmaq üçün həkimlərin vasitəsilə saxta sənədlər hazırlanır. Orduda kadr çatışmazlığı isə ciddi problemlərə yol açır. Ermənistan ordusunda gizir və çavuşların azlıq təşkil etməsi səbəbindən hərbi tapşırıqlar azyaşlı əsgərlərə həvalə olunur.

Erməni yazıçı Manvel Sarkisyan isə qeyd edib ki, prezidentliyə namizəd Armen Sarkisyanın hər iki oğlu Vardan və Hayk Ermənistanda hərbi xidmətdə olmayıblar. Hazırda onların hər ikisi Böyük Britaniyada yaşayır. Armen Sarkisyan bilməlidir ki, Londona atəş açılmır və orada cəbhə xətti yoxdur. Övladlarının orada qalması yalnız hərbi xidmətdən yayınmaq kimi izah oluna bilər. Görünür, Serj Sarkisyanın erməni xalqına qarşı apardığı düşmənçilik siyasətini Armen Sarkisyan davam etdirəcək. Ermənistan silahlı qüvvələri aztəminatlı ailələrin uşaqlarının ölümü üçün mövcuddur. Yüksəkvəzifəli şəxslərin övladları isə orduda xidmət etməkdən çəkinirlər. Bu səbəbdən onlar Ermənistanda yox, Moskvada, Londonda və Parisdə yaşayırlar.

# Suraxanı rayonunda 2017-ci ilə uğurla yekun vurulub

***"Suraxanı rayonunda 2017-ci ilin sosial-iqtisadi inkişafının yekunları və 2018-ci ildə qarşıda duran vəzifələr haqqında" rayon icra hakimiyyəti başçısının hesabat yığıncağı keçirilib. Tədbir iştirakçıları əvvəlcə Ümummilli Liderin Heydər Əliyev Parkında ucalan abidəsini ziyarət edib və orada həmişəyaşıl ağaclar əkiblər. Bununla da, rayonda ağacəkmə kampaniyasına start verilib.***




Hesabat yığıncağının iştirakçıları



ötən ilin iqtisadi göstəricilərini əks etdirən stendlərə baxıb, rayonun sənaye müəssisələrinin istehsal etdiyi məhsullarla tanış olublar. Hesabat yığıncağında rayonda aparılmış abadlıq-quruculuq işləri haqqında film nümayiş olunub.

Rayon icra hakimiyyətinin başçısı İlqar Abbasov hesabat məruzəsi ilə çıxış edərək, bildirib ki, son illər ərzində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən sistemli şəkildə həyata keçirilən məqsədyönlü və düşünülmüş islahatlar, ölkəmizin bütün regionlarında, o cümlədən, Suraxanı rayonunda da iqtisadiyyatın sürətli inkişafını, insanların yaşayış şəraitinin yaxşılaşmasını, yoxsulluğun və işsizliyin azaldılmasını, sabitliyin möhkəmlənməsini təmin edib.

İ.Abbasov çıxışında onu da bildirib ki, 2003-cü ildən bəri Suraxanıda 31 dəfə səfərdə olan və rayonun inkişafına daim böyük diqqət göstərən Cənab İlham Əliyev ötən il dekabr ayının 24-də Birinci vitse-prezident Mehriban xanım Əliyeva ilə birgə MİDA-nın ikinci layihəsi olan Hövsan Yaşayış Kompleksində tikiləcək ilk 7 mərtəbəli binanın təməlqoyma mərasimində iştirak edib.

Rayon icra hakimiyyətinin başçısı bildirib ki, rayonda 20 "Nümunəvi abad məhəllə" salınmış, İDEA İctimai Birliyinin təşəbbüsü ilə "Abad həyat - Sağlam həyat" layihəsi çərçivəsində Qaraçuxur qəsəbəsi, 4048-ci məhəllə 1, 2, 3, 4, 5 və 6 saylı yaşayış binalarının həyətində abad məhəllənin salınması işləri davam etdirilir: "Rayonda məcburi köçkün ailələrinin problemlərinin həlli diqqət mərkəzində saxlanılır. Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın qaçqın və məcburi köçkün ailələrinin problemlərinin həlli ilə bağlı verdiyi tapşırıqlara əməl olunur".

Yığıncaqda Azərbaycan Respublikası Prezidenti Administrasiyasının sektor müdiri Orxan Bayramov, Milli Məclisin deputatları Ağacan Abiyev, Sevinc Fətəliyeva, rayonun müəssisə və xidmət sahələrinin rəhbərləri və rayon sakinləri çıxış ediblər.

Yekunda rayon icra hakimiyyətinin başçısı İlqar Abbasov xüsusi vurğulayıb ki, bu gün Azərbaycanın müstəqil dövlət kimi mövcudluğu, inamlı və stabil inkişafı ölkəmizin Prezidenti ilə birbaşa bağlıdır: "Cənab İlham Əliyev öz iradəsi, insanlara doğru yolu göstərmək bacarığı ilə xalqı vahid məqsəd uğrunda səfərbər edən və arxasınca aparan əvəzolunmaz liderdir".

Sonda Azərbaycan Respublikasının Prezidenti Cənab İlham Əliyevə yığıncaq iştirakçıları adından müraciət qəbul olunub.

Rayonun sosial-iqtisadi inkişafında, abadlıq-quruculuq işlərində və ictimai həyatında fəal iştirak edən bir qrup şəxs rayon icra hakimiyyəti başçısının Fəxri Fərmanı ilə təltif edildi.

Hesabat yığıncağında Milli Məslisin deputatı Fərəc Quliyev də iştirak edib.

***Zümrüd BAYRAMOVA***

# "Ermənistanda insanlar bir parça çörəyə möhtacdır"



"Ümumiyyətlə, Ermənistanda əhalinin sayının sürətlə azalmasında təəccüblü heç nə yoxdur. Bu gün Ermənistan dövləti elə bir vəziyyətdədir ki, orada insanların normal şəraitdə yaşaması üçün belə şərait yoxdur". Bunu SİA-ya açıqlamasında siyasi şərhçi Azər Həsrət deyib. Siyasi şərhçinin sözlərinə görə, işğalçı ölkədə vəziyyət o qədər acınacaqlıdır ki, hətta insanlar bir parça çörəyə belə möhtacdırlar: "Çünki ölkənin iqtisadiyyatı sıfır dərəcəsindədir. Bütövlükdə ölkənin ən əsas iqtisadi sferaları başqa ölkələrin, şirkətlərin nəzarəti altındadır. Ona görə də ağlı başında olan ermənilər sadəcə olaraq öz ölkələrini tərk edib başqa ölkələrdə bir parça çörək qazanmağın dalınca gedirlər. Yəni bu təbii haldır. Ermənistana nə qədərki bu cür qapalı insanlar rəhbərlik edir, normal, ağlı başında olan ermənilər o ölkədə qalıb yaşayan deyillər. Sadəcə olaraq insanlar həyat, yaşayış, yaşamaq uğrunda mübarizə aparırlar. Xatırladım ki, SSRİ dağılanda Ermənistanda 2,7 milyon əhalisi var idi. Bu gün artıq faktiki olaraq o əhali nəinki artmayıb əksinə 1 milyon nəfərə qədər azalıb. Müqayisə üçün deyim ki, SSRİ dağılanda Azərbaycanın 7,5 milyon əhalisi var idi. Amma bu gün bizim əhalimizin sayı 10 milyona yaxınlaşıb. Bax, görürsünüz ki, ölkəmizlə Ermənistan arasında müqayisə apararkən Ermənistan üçün acı bir gerçəyi ortaya qoyur. Yəni Azərbaycan inkişaf edir, iqtisadiyyatı güclənir amma Ermənistan günü-gündən uçuruma gedir".

Qeyd edək ki, Emənistan əhalisinin sayı 2018-ci ilin 1 yanvarında 2 972,9 milyon nəfər olub. Statistika Xidməti bu göstəricinin keçən ilin analoji dövrü ilə müqayisədə 13,2 min nəfər az olduğunu bildirib. Buna səbəb mənfi miqrasiya saldosunun əhalinin artım tempini üstələməsidir. Ölkədə həmçinin artım 13,9 min nəfərdən 10,3 min nəfərə qədər aşağı düşüb. 2017-ci il ərzində Ermənistanda doğuşların sayı 7,1% azalıb, ölüm halları isə 3% artıb.

# Afrində 1369 terrorçu məhv edilib

Türkiyə ordusunun Suriyanın Afrin bölgəsində keçirdiyi "Zeytun budağı" əməliyyatı çərçivəsində 1369 terrorçu məhv edilib. SİA-nın Türkiyə mətbuatına istinadən verdiyi xəbərə görə, bu barədə Türkiyə Silahlı Qüvvələri Baş qərargahı məlumat yayıb. Məlumata əsasən, son sutka ərzində keçirilən əməliyyatda İŞİD və PYD terror təşkilatının 103 üzvü məhv edilib. Həmçinin terrorçulara aid sığınacaq, mağara və silah-sursat anbarı olmaqla 15 hədəf məhv edilib. Əməliyyat planlaşdırılmş şəkildə davam edir.





# Heç Corc Sorosdan xoşum gəlmir

**İLHAM**

***Fikrimcə, insanlar müxtəlif olduğu kimi, düşüncələri, xarakterləri, duruş və danışıqları da fərqlidir. Yaponiya alimlərinin gəldikləri qənaətə görə, dünyada iki eyni danışığa, bədən quruluşuna, rənginə və digər xüsusiyyətlərinə görə, insan tapmaq mümkün deyil. Əgər bu gün yer üzərində 7 milyarda yaxın insan yaşayırsa, deməli, 7 milyard fərqli insanlar mövcuddur. Buraya kimin varlı, kimin kasıb, kimisinin isə ortabab yaşadığını nəzərə alsaq, dünyamızın rəngarəng olduğunu demək olar. Həm də maraqlıdır ki, heç də bütün hallarda bir şəxs onu əhatə edən insanlar tərəfindən sevilmir. Elə götürək məni.***

Çoxları ola bilər ki, məni heç sevməsin, amma mənim də xoşlamadığım Adəm övladları mövcuddur. Açıq deyəcəm. Soros fondunun yaradıcısı və rəhbəri Corc Sorosu heç xoşlamıram. Ona görə yox ki, o həddindən artıq varlıdır, milyardları var, mən kasıbam. Sadəcə, bu şəxs haqqında o, qədər qulağıma söz-söhbət, məlumatlar çatıb ki, artıq bu məxluqdan zəndeyi-zəhləm getməyə başlayıb. Demək istərdim ki, iti görüm, qurdu görüm, axır ki, bu məxluq haqqında nəsə eşitməyim.

Bu məxluq fırıldaqçı, dələduz, həm də şpiyondur. Əlləm-qəlləm əməllərinə görə, dəfələrlə yaşadığı ABŞ-da haqqında cinayət işi qaldırılıb. Elə bu yaxınlarda Nyu-York və Vaşinqton ştatının əhalisi bir növ sözü bir yerə qoyaraq, ABŞ prokurorluğuna Corc Sorosun fırıldaqçı və dələduz olması səbəbindən cinayət işi qaldırılıb dama salınması barədə müraciət-iddia ünvanlayıblar. Sonunun necə olacağını demək çətin olsa da, amma fakt odur ki, bu qoca, tülkü nəinki bəzi ölkə xalqlarını, eləcə də, ABŞ vətəndaşlarını da boğaza yığıb. Ondan qurtulmaq üçün müxtəlif yollar və variantlar olsa da, pulu olması, hələ ki, bu imkanların həyata keçirilməsinə şərait yaratmır. Hələ ki, 87 yaşlı bu qoca fırıldaqçı meydan sulayıb, at oynadır. O günləri də özündən 42 yaşlı kiçik bir madmazel ilə evlənib. Tomiko Boltono adlı bu madmazel milyarderlə evlənməsindən o qədər cuşa gəlib, məmnun olub ki, palsız-paltarsız çıxıb fotoqraflar önündə dişlərini ağarda-ağarda müxtəlif pozalarda şəkillər çəkdirib. Hətta bu madmazel mızbirlərin birinə deyib ki, caniki Corc ona dəyəri 10 milyon dollar olan boyunbağı alıb. Varlığa nə darlıq, pulu-parası başından aşan Corc Soros sağa-sola pul xərcləyir. Əslində, onun tay-tuşu çoxdan İnkir-Minkirin sorğu-sualından keçib, oturub cəhənnəmin isti bucağında. Hərdən də başına bir şillə, qarnına da bir təpik vurub, etdiyi əməllərinə görə cavab verir. Amma pulun gücü 87 yaşlı qoca köpəyi ayaqda saxlayır. Bir növ, qırmızı pazı kimidir. Yerə vursan, yer dağılar. Hələ utanmaz-utanmaz Vaşinqtonda barlara gedib az qala nəvə-nəticəsi yaşında olan uşaqlarla tanqo gedir. Hələ ki, dövran onundur. Məsəl var, deyərlər, heç kim əbədi qala bilməz. Bizlərdə Azərbaycansayağı bir məsəl də var, Süleymana qalmayan dünya, sənə də qalmayacaq. Yəqin ki, heç xoşlamadığım Corc Sorosun da bir gün əlindəki əsa yerə düşəcək, dizləri bükülüb, canı ilə əlləşəcək. Həyatın qanunu budur.

# Yaxın Şərqdə yeni “ordu”, yaxud ABŞ-ın yeni planları

***Yaxın Şərq regionunda ümumi geosiyasi vəziyyət gərginliyini nəinki saxlayır, hətta daha mürəkkəb bir situasiyaya yuvarlanır. Vaşinqtonun Suriya Demokratik Qüvvələri ilə 30 minlik PYD/YPG ordusu yaratmaq planı haqqında informasiya yayması ilə regionda proseslər bir qədər də gərgin xarakter aldı. Bir sıra dövlətlər buna etirazlarını bildirdilər. Türkiyə isə ABŞ-ın, əslində, PYD/YPG üçün yaratmaq istədiyi ordunu beşiyində boğacağını bəyanladı. Bununla da ekspertlər regionda növbəti savaş ehtimalının yüksəldiyindən danışdılar. Gedən proseslərin Yaxın Şərqə və ona yaxın regionlara mümkün təsirləri üzərində düşünməyə ehtiyac yaranıb. O cümlədən böyük dövlətlər arasında nüfuz savaşının hansı təhlükələr yarada biləcəyi maraq doğurur.***



## Təhlükəli addım: Vaşinqtonun “su bulandırması”

Ekspertlər yekdilliklə Yaxın Şərqdə vəziyyətin daha da gərginləşdiyini bildirirlər. Region ölkələri arasında müşahidə edilən ziddiyyətlər kifayət qədər yeni problemlər meydana çıxarmaqdadır. Belə bir situasiyada Vaşinqtonun Suriyanın şimalında Suriya Demokratik Qüvvələri ilə 30 minlik ordu yaratmaq planından bəhs etməsi bir növ “odun üstünə yağ tökmək” effekti verdi. Türkiyə, Rusiya, İran ciddi surətdə etiraz etdilər. Ayrıca, Ankara yaradılması planlanan “ordu”nu beşiyində məhv edəcəyini açıq bildirdi.

Prezident R.T.Ərdoğan ABŞ rəhbərliyini sərt şəkildə ittiham edərək, bir terror təşkilatını digərinə dəstək verməklə məğlub etməyin mümkün olmadığını bəyan etdi. Türkiyə rəhbərliyi Suriyanın Afrin bölgəsini terrorçulardan təmizləyəcəyini birmənalı vurğuladı. Artıq türk ordusu həmin bölgəni mühasirəyə alaraq, PKK/KCK/PYD/YPG və İŞİD terror qruplaşmalarının üzvlərinə qarşı “Zeytun budağı” adlı əməliyyata başlayıb.

Türkiyənin rəsmi dairələri məsələ ilə əlaqədar aktiv diplomatik fəaliyyət göstərirlər. Baş Qərargah rəisi H.Akar Brüsseldə NATO toplantısı zamanı bir sıra görüşlər keçirib. O cümlədən ABŞ-ın müdafiə naziri və dövlət katibi ilə müzakirələr aparıb. Həmin görüşdən sonra R.Tillerson “Türkiyəyə məsələ ilə bağlı bir açıqlama vermək borcumuz var”, deyib. Ondan bir az əvvəl Pentaqon da bəyan edib ki, Şimali Suriyada ordu qurulmasından söhbət getmir, əsas hədəf həmin bölgədə təhlükəsizliyi təmin etmək və İŞİD-i sona qədər məhv etməkdir.

Lakin Türkiyə rəhbərliyi bu kimi fikirləri ziddiyyətli hesab edir. Çünki təcrübə göstərir ki, amerikalılar bir söz deyir, ancaq başqa iş görürlər. Bundan başqa, artıq 200-dən çox terrorçuya ABŞ xüsusi təyinatlılarının təlim keçdiyi haqqında informasiyalar yayılmaqdadır. Bu rəqəmin 30 minə çatdırılacağını da Suriya Demokratik Qüvvələrinin təmsilçisi deyib. Ankara deyilən sözlərdən çox atılan praktiki addımlara diqqəti çəkir. Belə ki, ABŞ-ın SDQ-yə bir neçə min yük maşını silah verdiyini söyləyir və bu prosesin indi havadan da aparıldığını ifadə edir. Deməli, sürətlə silahlanma gedir. Bunun səbəbi haqqında isə Vaşinqton konkret bir söz demir.

Buna görədir ki, yanvarın 17-də keçirilən Türkiyə Milli Təhlükəsizlik Şurasının aldığı qərarlar sırasında amerikalıların PYD/YPG-yə verdiyi silahları geri toplaması haqqında da bənd vardır. Bu tələbin yerinə yetirilib-yetirilməyəcəyi aydın deyil. Lakin ekspertlərin fikrincə, Türkiyə Milli Təhlükəsizlik Şurasının son toplantısında Afrin və Münbiclə bağlı lazımi tədbirlərin görüləcəyi ilə bağlı qərarın verilməsi Ankaranın situasiyaya çox ciddi yanaşdığını göstərir. Bu aspektdə türk ordusunun Suriyada qarşısına çıxacaq hər kəslə savaşa biləcəyini təxmin etmək olar.

Maraqlı vəziyyət yuxarıda vurğulanan məqamlar kontekstində NATO-da yaranıb. Çünki Türkiyə NATO-nun üzvüdür və bu təşkilatın nizamnaməsinin 5-ci bəndinə görə, üzv dövlətlərin sərhədləri həm də NATO-nun sərhədidir. Belə çıxır ki, ABŞ NATO üzvü olduğu halda, təşkilatın digər üzvünün sərhədlərini terrorçuların qorumasına cəhd edir. Təbii ki, tam nonsensdir və Şimali Atlantika Alyansı həmin paradoksu həll etməlidir. Ən azından Ankara hesab edir ki, Vaşinqton onun düşmənlərini silahlandırır. Bu problem NATO üçün ciddi başağrısı ola bilər.

## Qarşıdurma: təhlükəli ssenarilər

Beləliklə, daha çox Vaşinqtonun müəmmalı addımları ilə Suriya və İraqda kifayət qədər mürəkkəb vəziyyət yaranıb. Hər iki ölkənin təhlükəsizliyinə ciddi təhdidlər mövcuddur. Suriyada isə durum daha böhranlı vəziyyətdədir. B.Əsəd demək olar ki, ölkənin əksər ərazisinə nəzarət edə bilmir və təsadüfi deyil ki, orada ümumi gedişatı ruslar, iranlılar, türklər və amerikalılar istiqamətləndirir. Bu halda Suriyanın dövlət olaraq ciddi təhlükələrlə üz-üzə qaldığını etiraf etmək gərəkdir. Yenı hətta xarici güclər ölkəni rəsmi olaraq nüfuz dairələrinə bölə bilərlər. Artıq havada Amerika və Rusiya dominantlıq edir. Bu, müvəqqəti olaraq sabitliyi təmin edirsə, perspektivdə Suriyanın suverenliyinə və ərazi bütövlüyünə böyük təhlükədir.

Sonra, Vaşinqtonun İŞİD-in məğlub edilməsi ilə ortaya yeni bir qanunsuz silahlı qruplaşma çıxarmaq niyyəti açıq-aşkar görünür. Ekspertlər bir neçə ay əvvəl İŞİD-i başqa bir terror təşkilatının əvəz edə biləcəyi ilə bağlı proqnozlar verirdilər. Demək olar ki, həmin proqnoz özünü doğruldur. Ancaq burada bir yenilik var. Məsələ ondan ibarətdir ki, Amerika bu dəfə qanuni don altında qanunsuz silahlı qrup yaradır. Əgər İŞİD əzəldən Suriya və İraq hakimiyyətinə qarşı mövqedə idisə, Suriya Demokratik Qüvvələri üçün yaradılmalı olan silahlı qrup bəri başdan rəsmi status almış və sabitliklə sərhədi qorumağa məsul edilmiş təşkilat olaraq təqdim edilir. Bu, beynəlxalq münasibətlərdə bir sıra yeni problemlər yarada bilər. Belə ki, Suriya real parçalanma ilə üzləşər. O halda ABŞ-ın yaratdığı silahlı qrupu terrorçu deyə aradan qaldırmaq çox mürəkkəb bir iş olacaq.

Digər tərəfdən, bu cür yaradılan hərbi qruplaşma bütövlükdə Yaxın Şərq üçün böyük təhlükədir. Konkret deyilsə, həmin nümunə regionda dövlətçilik üçün ciddi təhdidlər yarada bilər. Digərləri də analoji addımlar ata bilər ki, sonucda bütün müsəlman ölkələri bir-birinə düşmən kəsilər. Ən azından bölgə xalqları arasında legitimlik uğrunda mənasız, nəzarətsiz və qarşısıalınmaz proseslər başlayar. Şübhəsiz ki, belə bir vəziyyətdə regionun heç bir ölkəsinin ərazi bütövlüyünə təminat qalmaz.

Geosiyasi aspektdə başqa düşündürücü məqam böyük güclər arasında nüfuz uğrunda savaşın daha geniş məkanda silahlı qarşıdurmaya keçməsi ehtimalının artması ilə bağlıdır. Çünki ABŞ-ın atdığı addıma qarşı Rusiya, İran və Çin də konkret cavab hazırlaya bilərlər. Rusiyanın ciddi etiraz etdiyini yuxarıda qeyd etmişdik. Moskva mövqeyini gücləndirmək üçün daha nələr edə bilər? Xatırladaq ki, bir neçə gün öncə Rusiyanın Hmeymimdəki hərbi bazasına dronlarla hücum edilmişdi. Əvvəlcə, hadisəni Türkiyənin boynuna qoymağa çalışdılar, təsdiqini tapmadı. Sonra, ABŞ rəsmi olaraq olayla əlaqəsinin olmadığını bəyan etdi. Bunların fonunda rusiyalı mütəxəssislərin gəldiyi nəticə belə oldu: Suriyadakı Rusiya hərbi kontingentlərini daha təhlükəsiz qorumaq üçün əlavə hərbi gücə ehtiyac vardır!

Bununla da Rusiyanın əlində Suriyada öz hərbi gücünü artırması üçün arqument vardır. Onda həmin regionda böyük güclərin hərbi qarşıdurmasının daha da güclənə biləcəyini proqnozlaşdırmaq olar. Məsələnin digər bir tərəfi də kifayət qədər təhlükəlidir. Məsələ Suriya və İraqda indi mövcud olan qruplar arasında savaşın şiddətlənməsi ilə bağlıdır. Artıq Kərkükdə narahatedici hadisələr baş verir. Türkiyə Milli Təhlükəsizlik Şurasının son toplantısının qərarında Kərkükdə artan gərginlikdən narahatlıq bildirilib və Bağdadın bölgədə dəyişiklikləri hüquqi çərçivədə aparacağına, şəhərin demoqrafik tərkibində süni dəyişikliklər etməyəcəyinə ümid ifadə olunub.

Bütün bunlar onu göstərir ki, adı nə olurolsun, Suriya, yaxud İraqda hərbi qrupların yaradılması ümumən region üçün böyük təhlükələr meydana gətirir. Hətta yeni terrorçu, separatçı və ekstremist dalğa formalaşa bilər ki, bunun da Yaxın Şərqdəki vəziyyətə təsiri aydın deyil. Bu baxımdan ABŞ-ın Suriya Demokratik Qüvvələri üçün nəzərdə tutduğu planlar olduqca təhlükəli görünür. Yaranmış problemləri əlavə olaraq kimlərisə silahlandırmaq yolu ilə deyil, qrupları silahsızlaşdırmaq və siyasi dialoqu təşkil etmək üsulu ilə həll etmək olar. Təəssüf ki, bu barədə Türkiyədən başqa düşünən yoxdur.

***Newtimes.az***

# "Müharibə ikinci variantda qalmalıdır"

## *Azər Badamov: "Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində danışıqların aparılması prosesi intensivləşməlidir"*

***- Azər müəllim, ATƏT-in Minsk Qrupunun həmsədrləri regiona səfərləri çərçivəsində Azərbaycan Prezidenti ilə də görüşdülər. Bu səfər münaqişənin həllinə nə kimi yeni imkanlar aça bilər?***

- Vaxtaşırı olaraq, ATƏT-in Minsk Qrupunun həmsədrlərinin regiona səfərləri həyata keçirilir. Səfər çərçivəsində prezidentlərlə görüşlər keçirilir və münaqişənin həlli müzakirə olunur. Həmsədrlərin bu səfəri də, növbəti prosedur qaydalarının icrası üçün həyata keçirilir. Düşünürəm ki, həmsədrlərin son səfəri də, ondan əvvəlki səfərlərində olduğu kimi, Dağlıq Qarabağ münaqişəsinin həllinə hər hansı bir yenilik gətirməyəcəkdir. Amma onu da qeyd etmək istəyirəm ki, həmsədrlərin hər bir səfəri Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsi istiqamətində cəhdin olması kimi başa düşülməli və ən azından, müzakirələrin aparılması müsbət dəyərləndirilməlidir.

***- Bu ilin aprelində həm Azərbaycanda, həm də Ermənistanda seçkilər keçiriləcək. Bu baxımdan, demək olarmı ki, seçkilərə qədər Dağlıq Qarabağ münaqişəsinin həlli məsələsində hər hansı görüşlərə və müzakirələrə ümid bəsləmək olmaz?***



Müsahibimiz millət vəkili Azər Badamovdur

- Biz hər zaman bizim üçün ən böyük çətinliyə çevrilmiş işğal problemimizi müzakirə etməyə hazır olmalıyıq. Seçkiyə qədər də, seçkidən sonra da. Ya müzakirələrlə ümumi razılığa gəlməliyik, ya da danışıqlar prosesini dayandırıb, silaha sarılaraq müharibə etməliyik. Amma nə qədər ki, danışıqlar aparmağa mövzu var, danışıqlar aparmalı və müharibə ikinci variantda qalmalıdır. Ona görə də, danışıqların və görüşlərin aparılmasının davam etdirilməsini vacib hesab edirəm.

***- Həmsədrlər Bakıda verdikləri açıqlamalarında bəyan etdilər ki, seçkilərdən sonra danışıqlar intensivləşəcək, Sizcə, intensiv danışıqlar münaqişənin həllinə kömək edə biləcəkmi?***

- Təbii ki, edə bilər. Dünyanın da dəstəklədiyi münaqişənin həll yolu danışıqlarladır. Ona görə də, prezident seçkilərindən sonra da, Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində danışıqların aparılması prosesi intensivləşməlidir. Görüşlər tez-tez keçirilməli və münaqişənin həlli istiqamətində kompromis variantlar nəzərdən keçirilməlidir. Amma bütün kompromis variantlar Azərbaycanın ərazi bütövlüyü çərçivəsində olmalıdır.

***GÜLYANƏ***

---

# Müxalifətin boykot qərarı mənasızdır

***Sosial şəbəkələrdə dağıdıcı müxalifət tərəfdarları, xüsusilə də, AXCP mənsubları seçkilərin vaxtının aprel ayına təyin edilməsi ilə bağlı primitiv, hətta absurd iddialarla çıxış edirlər. "Qərb aşina"ları məsələyə yanlış yanaşırlar desək, fikrimizi tam ifadə edə bilmərik, çünki bu kəslər sifarişçilərinə və buyruq sahiblərinə, Azərbaycanın yürütdüyü müstəqil xarici siyasətdən narazı dairələrə, ölkələrə və təşkilatlara xəyanətkarcasına qulluq edirlər. Bakını, postsovet məkanındakı bir sıra paytaxtlar kimi, Qərbin tam rahatlıqla, asanlıqla və hətta ikrah hissi ilə idarə etdiyi marionet hakimiyyətin paytaxtı qismində görmək istəyənlərin dəyirmanına su tökür, əslində, dövlətçiliyə, xalqa və milli maraqlara xəyanət sərgiləyirlər.***

Ölkəmizdə sabit siyasi və iqtisadi vəziyyət formalaşıb və bizim üçün daxili risklər mövcud deyil. Üzləşmə ehtimalı olan bütün potensial risklər yalnız xaricdən qaynaqlana bilər. Yalnız Azərbaycanın uğurlarını və inkişaf dinamikasını gözü götürməyən qüvvələrdən belə bir risk ehtimalı ola bilər. Təkzib edilə bilməz ki, Azərbaycanın siyasi, iqtisadi sabitliyini bəzi yaxın və uzaq qonşular düzgün qiymətləndirmir və neqativ təsirlər göstərməyə çalışaraq, daxili sabitliyi pozmağa cəhd edirlər. Ölkəmizə qarşı əsassız və süni ittihamlar irəli sürülür, antidemokratik ölkə obrazını yaratmağa cəhd göstərilir, müxtəlif kampaniyalar təşkil edilir. Azərbaycanda siyasi məhbus və insan haqlarının pozulması halları barədə dezinformasiyalar yayan, ölkəmizi nüfuzdan salmağa çalışanlar, əfsuslar olsun ki, hələ də var.

### Seçkinin aprel ayına təyin edilməsini özlərinə zərbə hesab edənlər özlərini də, azsaylı tərəfdarlarını da aldadırlar

Məsələ burasındadır ki, xarici məkrli qüvvələrə xidmət edən və xəyanətkar mövqeyi ilə seçilənlər Azərbaycanda müxalifət düşərgəsində təmsil olunur və öz ağalarının əmrlərinə müntəzir olaraq, bütün imkanlarını səfərbər etməyə, çaxnaşmalar salmağa, ən azından, dezinformasiyalar yaymağa cəhd edirlər. Partiyalarının saytı belə, işlək vəziyyətdə olmayan AXCP-nin ateşin statuslar yazan "qvardiya"sı bu xüsusda öndə gedir. Ən gülünc olan isə, odur ki, bu "qvardiyaçılar" seçkilərin aprel ayına təyin edilməsini "Milli Şura"nın sədri Cəmil Həsənli və ələlxüsus da, AXCP sədri Əli Kərimlinin namizədliyinə maneçilik kimi dəyərləndirirlər. Güya seçkilərin oktyabrda keçirilməsi Həsənli, yaxud Kərimli üçün nəyi isə dəyişəcəkmiş.



Müxalifət seçkinin aprel ayına təyin edilməsini özü üçün ağır zərbə hesab edir. Amma seçkilərədək altı aylıq hazırlıq, təşviqat və təbliğat planlarının pozulmasından bəhs edənlər, ağır zərbədən danışanlar, tək özlərini yox, həm də onlara hələ də inanan azsaylı tərəfdarlarını da aldadırlar. Çünki 2018-ci ilin seçki ili olduğunu, istisnasız olaraq, bütün siyasi partiyaların rəhbərləri çoxdan bilirdilər və hamısı da seçkilərə hazırlaşırdılar. Daha doğrusu, hazırlaşmalı idilər. Əgər hazırlaşmamışdılarsa, bu, onların problemidir və özlərini günahkar hesab etməlidirlər. Bir neçə məntiqi sual ortaya çıxır. Əgər müxalifət bu zamana kimi seçkilərə hazırlaşıbsa, indi bu hay-küy salmaq nəyə lazımdır və kimə xidmət edir? Yox əgər hazırlaşmayıbsa, o zaman müxalifətçilər, bu illər ərzində nə ilə məşğul idilər?

### Olmayan plan və proqramların pozulması iddiası çox gülünc səslənir

Təbii ki, müxalifətin heç bir plan və proqramlarının, konsepsiyalarının olmadığı gün kimi aydındır və strategiyanın olmasına bundan sonra da güman yoxdur. Bu halda, olmayan plan və proqramların pozulması iddiası çox gülünc səslənir və reallıqdan hədsiz dərəcədə uzaqdır. Xarici ağalarının tapşırıqları istisna olmaqla, müxalifət düşərgəsinin bundan sonra görəcək heç bir işi və sərgiləyəcək heç bir fəaliyyəti yoxdur. Kərimli də Həsənli də bunu yaxşı başa düşür. Lakin səs-küy salmaqda məqsəd məğlubiyyəti indidən sığortalamaqdır. Elə boykot sözünü də ortaya atmaqla bunu rəsmən təsdiq etmiş oldular.

"Milli Şura" sədri və "Yurd" sədri iddia edirlər ki, müxalifət hüquqsuz yaxalandı. Guya ki, müxalifətin bundan sonra hazırlaşmağa potensialının olmadığını bilməyən var. Hamıya bəllidir ki, müxtəlif ittifaqlar, birliklər, bloklar, şuralar yaradaraq, nəyə isə nail olmağa çalışan müxalifət "siyasi meyit" statusunu çoxdan qazanıb və liderlərinin hər hansı formada normal, adekvat siyasi fəaliyyət taktikaları, davranış strategiyaları ola da bilməz. Bu baxımdan, Prezident seçkilərinin hansı vaxtda keçiriləcəyindən asılı olmayaraq AXCP, "Milli Şura" və digər müxalif qurumlar, sadəcə, sosial şəbəkələrdə trolluqla məşğul ola bilirlər. Belə bir halda, onlar mövcud hakimiyyət üçün rəqib hesab oluna bilərmi? Əlbəttə ki, yox. Məhz elə buna görə də, seçkilərin oktyabrda deyil, apreldə keçirilməsinin müxalifətlə heç bir əlaqəsi olmadığı təsdiq olunur və müxalifət düşərgəsinin bu iddiaların əsassız olduğu bəlli olur.

De-yure AXCP sədri, de-fakto isə Facebook fəalı, blogger Ə.Kərimli islahatlardan dəm vurmaqdansa, etiraf etməlidir ki, dövlət başçısı İlham Əliyev ən ciddi və qətiyyətli islahatçı, köklü dəyişikliklərin təşəbbüskarı, postneft erasında labüd addımlar atan siyasi xadimdir. Məhz buna görə də, təkcə Kərimli deyil, bütün müxalifət qurumları etiraf etməlidir ki, müxalifətin boykot qərarı mənasızdır və Cənab İlham Əliyev Azərbaycan Prezidenti olmağa ən layiqli namizəddir və seçkilərin nə zaman keçirilməsindən asılı olmayaraq, xalq Onu dəstəkləməyə, etimad göstərərək və səs verməyə hər zaman hazırdır.

***İnam HACIYEV***

---



**AFƏT**

## Gərək "boykot"a qol qoymayaydın, "bəy"!

***Kərbəlayi demiş, heç oğlu Yadullanın müsibəti də belə olmamışdı. ABŞ-dan gələn qonağın belə edəcəyini Əli Kərimli heç ağlına da gətirməzdi. Nəinki ağlına, yatanda yuxusuna da girməzdi. Gecə-gündüz sosial şəbəkələrdə kompyuter başında oturub, ağlına və ağzına gələni danışır. "Boykot" deyib, bar-bar bağırır. Guya ətrafında olan "tərəfdaşları"nı da boykot qərarına səsləyir. Buna deyən gərəkdi ki, ay Əli, yaxşı lider ötən prezident seçkisindən bu yana olan müddət ərzində lazımi işlərini görərdi. Özünü xalqa tanıdardı, necə ki, elə sən özünü "tanıtmısan". Oturub-durub seçki deyirdin, aha, bu da seçki. Bəs niyə geri çəkilirsən?***

Bir yandan da Razi Nurullayevin rəhbərlik etdiyi AXCP-nin hüquqi statusa malik olması ilə bağlı Ədliyyə Nazirliyinə müraciət etməsi, indi də prezident seçkilərində iştirak etmək istəməsi və bu gedişlə də Ə.Kərimlinin arxa plana düşməsi onu lap özündən çıxardı, necə deyərlər, lap ona od qoydu. Əlində olan qalan bir möhürü vardı, indi də deyirlər ki, cavan olmusan, qanmamısan, eybi yox, "ştampeli"ni də qoy, keç bu tərəfə. Dözdü, buna da dinmədi. Sərdar Cəlaloğlu və digərləri də seçkini dəstəklədi, buna da dözdü. Amma di gəl ki, ABŞ-ın dövlət katibinin müşavirininköməkçisi heç kimlə yox, gedib yalnız Müsavatın keçmiş başqanı ilə görüşməsi, Ə.Kərimliyə lap dağ çəkdi. AXCP və Müsavat partiyaları arasında uzun illərə dayanan pərdəarxası davalar gedir və bunun da əhatə dairəsi get-gedə genişlənir. Hətta bəzi müxalifətçilər fikirləşirlər ki, Müsavat partiyası AXCP-ni və onun tərəfdarlarını ləkələmək, onların arasında şübhə toxumu səpməklə məşğuldur. Bu son hadisə də közərməkdə olan közü daha da alovlandırmağa vasitəçi oldu. Qonağın gözlənilmədən atdığı bu addımından belə çıxır ki, Ə.Kərimli artıq xarici qüvvələrin gözündə heçə dönüb. Belə də baxanda, amerikalının və ya başqa xaricinin nə vecinədi ki, seçkiyə gedən ya kərimlilərdi, ya da qəmbərlər?! Əsas odu ki, onların planlaşdırdıqları həyata keçsin.

İndi, imanımızı yandıra bilmərik ki, İ.Qəmbərlə "importnu" qonağın arasında nə söhbətlər gedib, amma orası məlumdu ki, bu hənə, heç də yaxşı hənaya oxşamır. Hənə demiş, Ə.Kərimli bu dəqiqə lap elə Məşədi İbadın günündədi. Xaricilərə necə belə bağlanmışdısa, olan-qalanı da əlindən gedib. Axı ona deyən gərəkdi ki, "qonşuya ümid olan, şamsız qalar". Sən niyə yerində rahat oturmurdun ki, axırda da "ofsaytda" qaldın? Deyilənə görə, AXCP-nin qarşısından keçəndə, Kərimlinin yanıqlı-yanıqlı naləsi eşidilirmiş:

*İşlərimin hamısı zülüm getdi,*
*At axtarırdım, çulum getdi.*
*Xarici havadarlara bel bağladım,*
*Paçkalarla gələcək pulum getdi.*
*Bax belə...*

TƏRS BAXIŞ

# Əli Kərimli KXCP-yə "qırmaq" atdı

## Və ya Mirmahmud Mirəlioğlunun partiyası AXCP ilə "savaşa" hazırlaşır?

**Seçkilər öncəsi ənənəvi müxalifət partiyaları arasında qalmaqallar davam edir. Boykot edən siyasi təşkilatlarla seçkilərə qatılmaq iddiasında olan partiyalar bir-birilərini müxtəlif məsələlərdə ittiham edirlər. Xüsusilə, bu kimi amillərdə "Milli Şura"-AXCP cütlüyü canfəşanlıq göstərir.**



Məhz bu səbəbdəndir ki, son günlər Mirmahmud Mirəlioğlunun sədri olduğu KXCP-də baş verən istefalarda, bilavasitə AXCP sədri Əli Kərimlinin "barmağı"nın olması barədə məlumatlar daxil olmaqdadır. Məsələ ondadır ki, fevral ayında "klassik cəbhəçilərdən" Elşən Həşimov, Sudeyif Sadıxlı, Məmmədəli Zülfü, Qurban Qurbanov, Yaqub Babalı istefa veriblər. Onlar KXCP sıralarını tərk etmələri barədə feysbuk sosial şəbəkəsində bildiriblər. Hətta Elşən Həsənov anons edib ki, istefalar bundan sonra da davam edəcək.

### Əli Kərimlinin trolları Xəzər Teyyubluya qarşı kampaniyaya başlayıblar

Digər maraqdoğurucu məqam KXCP sədrinin müavini Xəzər Teyyublunun açıqlaması ilə bağlıdır. O, mətbuata açıqlamasında deyib ki, bu məsələ rəsmi strukturlarda müzakirə edilməyib: "Bu məsələ əsasən, sosial şəbəkələrdə müzakirə edilir. Biz hesab edirik ki, partiyadaxili məsələlərin sosial şəbəkələrdə müzakirəsi yolverilməzdir. Sözsüz ki, müzakirələr partiya daxilində getməlidir. Əlbəttə, sosial şəbəkələrdə hər kəs öz mövqeyini açıqlaya bilər, amma ilk öncə, bu müzakirələr partiyanın rəsmi strukturlarında aparılmalıdır. Hazırda KXCP-nin bu məsələyə dair mövqeyi yoxdur. Müzakirə açmaq istəyən üzvlərimiz partiyadaxili strukturlara müraciət edə bilərlər. Hesab edirəm ki, media sosial şəbəkələrdə yazılanlara KXCP-nin rəsmi mövqeyi kimi yanaşmamalıdır".



Ancaq onun bu kimi açıqlamasının ardınca, Ə.Kərimlinin trolları X.Teyyubluya qarşı kampaniyaya başlayıblar. Onlar M.Mirəlioğlunu seçkilərə qatıldığına görə, müxalifətə xəyanətdə ittiham edirlər.

### Əli Kərimli hansı müxalifət partiyalarına vədlər verib?

Bu isə, belə deməyə əsas verir ki, artıq Ə.Kərimli KXCP-yə də "qırmaq" atıb və boykotuna dəstək almaqdan ötrü müxalifət partiyalarında təmsil olunan şəxslərə maliyyə təklifləri göndərir. Hətta onun Müsavat partiyasında təmsil olunan şəxslərə də müəyyən vədlər verdiyi barədə informasiyalar mövcuddur. Bu baxımdan, KXCP-dən baş verən istefalar həmin məsələnin reallığıdır. O da, əbəs deyil ki, X.Teyyublu mövcud məsələni bacardıqca gizlətməyə çalışır. Məsələn, deyir ki, istefalar ətrafında bab verənlərin mətbuatda müzakirəsini də düzgün saymır. Beləliklə, fakt budur ki, artıq bu kimi məsələlər get-gedə artır və inanılmış mənbələr Ə.Kərimlinin seçkilərə qatılmaq fikrində olan müxalifət partiyalarına müxtəlif vasitələrlə müdaxiləlləri barədə xəbərləri təsdiqləyirlər. Görünür, bu yaxınlarda KXCP ilə AXCP arasında yeni amansız savaşa start veriləcək.

**RÖVŞƏN**

# Sosial şəbəkələr təlxəyinin növbəti şousu

## Əli Kərimli yenə öz ampluasındadır

**Dağıdıcı müxalifətin bir neçə üzüqara "lideri" aprelin 11-də keçiriləməsi nəzərdə tutulan prezident seçkilərini birgə boykot etdiyini bəyan edib. Onların anormal qərarları dövlətimiz və xalqımız üçün bir çox mətləbləri üzə çıxarmış oldu. Əli Kərimli hazırda pozucu əməlləri ilə düşmən dəyirmanına su tökdüyünü açıq-aydın nümayiş etdirir. Azərbaycan xalqı dəfələrlə Ə.Kərimlinin milli və dövlətçilik maraqlarını zərbə altına qoymaq məqsədi ilə, xarici maraqlı qüvvələrin mövqeyindən çıxış etməsinin şahidi olur.**




Kimin dost, kimin düşmən olduğu hər kəsə məlumdur. Amma həmişə olduğu kimi, yenə də Ə.Kərimlinin qeyri-rəsmi rəhbərlik etdiyi "Mili Şura" hazırkı durumda da anti-dövlət mövqeyini ortaya qoyur. Əlindən bir iş gəlmədiyindən ancaq gücü sosial şəbəkələrə verən Ə.Kərimlinin hər etdiyi çıxışlarının məğzində yenə də düşünülməmiş ucuz siyasətin durduğu görünür. Çalışdığı odur ki, Azərbaycanın beynəlxalq aləmdəki nüfuzuna xələl gətirsin. Hələ də, 1992-ci ildə dövlət katibi olduğu zamanlarda, atdığı uğursuz addımları və hazırda da uğursuzluqla nəticələnən hərəkətləri davam etməkdədir. Sosial şəbəkələrdə çıxardığı şoulardan, bir daha aydın şəkildə görünür ki, onun dövlət siyasətindən, ümumiyyətlə, dövlətçilikdən qandığı bir qrafa yoxdur. Bu gün sosial şəbəkələr fəaliyyətini dayandırsa, Ə.Kərimli də mövcudluğunu itirmiş olacaq.

Ə.Kərimli və ətrafındakı öz səviyyəsindəki insanları Azərbaycanın beynəlxalq aləmdəki nüfuzu, dövlətçilik səviyyəsini qoruduğu və torpaqlarımızın işğaldan azad edilməsi maraqlandırmır. Onlar yalnız və yalnız ölkədə qarışıqlıq yaratmaq və araya çaxnaşma salmaq fikrindədirlər. Köhnə təfəkkürdə qaldıqlarından, indi də arzuları Azərbaycanda qarmaqarışıqlar salmaq, yenidən xaricdən müəyyən qüvvələrin dəstəyi ilə ölkədə xaos yaratmaqdır.

Hər kəsə bəlli olan fakt, ondan ibarətdir ki. hazırda Ə.Kərimlinin maraqlarını pul xətrinə bir qrup sosial şəbəkə istifadəçilərindən başqa qoruyan yoxdur. Dağıdıcı müxalifətin bir çoxu ayrılaraq, ondan uzaq durmağa və bacardıqca susmağa üstünlük verirlər. Xalq bu gün öz Prezidentini dəstəkləyir və Onun ətrafında sıx birləşib. Azərbaycan vətəndaşı dövlətinin beynəlxalq aləmdə qüdrətinin artmasında, müstəqil siyasət yürütməsində, daha geniş anlamda nüfuz qazanmasında maraqlıdırlar. Elə, bu baxımdan da, dövlət başçısın Ümummilli Liderimiz Heydər Əliyevin indiyə qədərki kursunu layiqincə qoruyub-saxlamaqla, gələcəyə yeni uğurlarla davam etdirməyi zəruri edir. Ona görə də, ölkədə aparılan bu uğurlu siyasətin qarşısında hansısa "namizəd" İlham Əliyevə rəqib ola bilməz.

**Afət TAHİRQIZI**

# Arif Hacılı İsa Qəmbərin yolunu kəsdi

## Sabiq başqanla mövcud başqan arasında münasibətlərə son qoyulur

**Bəlli olduğu kimi, Müsavat partiyasının məclisi 11 apreldə keçiriləcək prezident seçkilərində partiyanın üzvü, sabiq başqan İsa Qəmbərin iştirakının qarşısını alan qərar verib. Belə ki, bir müddət öncə, İ.Qəmbərin sədri olduğu "MSDM"-də seçkilərdə iştirakla bağlı qərar qəbul olunmuşdu. Hətta eks-başqan bu yaxınlara qədər iştirakı ilə bağlı açıqlamalarla çıxış edib və qərarlı olduğu görünüb.**



### Arif Hacılı İsa Qəmbərin qarşısına sədd qoymaq üçün Əli Kərimli ilə separat danışıqlara gedib?

Bütün bunlardan sonra onun qarşısının kəsilməsi növbəti məqamlara aparıb çıxarır. Məsələ ondadır ki, mövcud başqan Arif Hacılı partiyaya rəhbərliyə başladığı andan etibarən, AXCP sədri Əli Kərimli ilə münasibətlərini tənzimləməyə çalışıb, hətta cəbhəçi sədrin ayağına qədər gedib də. Lakin qarşı tərəf onun təşəbbüslərini rədd edərək, əsas məsələni Müsavatın "Milli Şura"dan çıxmasına yönəldib. A.Hacılının isə Ə.Kərimli ilə münasibətlərini tənzimləmək cəhdləri İ.Qəmbərin maraqlarına cavab verməyib. Bu baxımdan, sabiqlə hazırkı başqan arasında münasibətlərdə müəyyən soyuqluqlar yaranıb. İ.Qəmbər seçkilərə qatılacağını bəyan etdikdən sonra, isə A.Hacılı onun qarşısına sədd qoymaq üçün Ə.Kərimli ilə separat danışıqlara gedib. Daha doğrusu, Müsavatın seçkilərə namizəd irəli sürməməsi qarşılığında AXCP-nin bu partiya ilə münasibətlərinə yenidən baxacağı öhdəçiliyi götürülüb.

Müsavat daxilindəki etibarlı mənbə qeyd edib ki, A.Hacılı hətta bu münasibətlərin bərpasına görə İ.Qəmbərdən də, imtina etməyə hazır olduğunu gizlətməyib. Ona görə də, Müsavatın məclisində səs çoxluğu kimi seçkilərdən imtina qərarı verilib. Halbuki Müsavatın divanı da seçkilərdə iştirak üçün İ.Qəmbərə yaşıl işıq da yandırmışdı.

Beləliklə, bütün bunlar, onu göstərir ki, Müsavat rəhbərliyi, əslində, İ.Qəmbərin seçkilərə qatılmasında maraqlı olmayıb. Partiya rəhbərliyi arasında da bu məsələdə müəyyən fikir ayrılıqlarının olduğu məclisin qərarından sonra özünü büruzə verib. Bu fakt isə, seçki prosesində Müsavatın daha dərindən parçalanmasına zəmin yaradan amil olaraq qiymətləndirilə bilər.

**R.RƏSULOV**

# Qanunsuz miqrasiyaya qarşı keçirilən əməliyyat nəticəsində 11 əcnəbi vətəndaş saxlanılıb

**Dövlət Miqrasiya Xidmətinin (DMX) qanunsuz miqrasiyaya qarşı keçirdiyi tədbirlər zamanı 7 yeddi nəfər Nepal, üç nəfər Hindistan və bir nəfər Şri-Lanka vətəndaşı saxlanılıb. DMX-dən AZƏRTAC-a verilən məlumata görə, araşdırma zamanı Hindistanda çalışan Deepak adlı şəxsin Ukrayna vətəndaşı Vladislav Kobil ilə əlbir olaraq əcnəbilərin Azərbaycana gətirilməsini təşkil etdiyi məlum olub. Belə ki, üç nəfər Hindistan və bir nəfər Şri-Lanka vətəndaşının Avropaya getmək məqsədilə Deepaka müraciət etdiyi və onun həmin şəxslərin Azərbaycana göndərilməsini təşkil etdiyi aşkarlanıb.**



Deepakın respublikamızda əcnəbilərə müvəqqəti yaşama icazəsi alınması üçün Vladislav Kobil ilə əlaqəyə girdiyi və sonradan onları Avropa ölkələrinə göndəriləcəkləri vədi ilə aldadaraq külli miqdarda vəsaitlərini mənimsədiyi məlum olub. Eyni zamanda, Deepakın yeddi nəfər Nepal vətəndaşını da Azərbaycanda işlə təmin ediləcəkləri vədi ilə aldadaraq külli miqdarda ödəniş qarşılığında Azərbaycana göndərdiyi müəyyənləşdirilib. Görülmüş tədbirlər nəticəsində əcnəbilərin Azərbaycana gətirilərək qanunsuz miqranta çevrilməsi və neqativ miqrasiya kanalının təşkil edilməsi cəhdinin qarşısı alınıb.

# İnsanların qanun qarşısında bərabərliyi

***Hüquqi normalar, bütün insanların qanun qarşısında bərabərliyini elan edir və onu həyata keçirir. Beləliklə də, o, insanların subyektiv, fərdi keyfiyyətlərini nəzərə almır, onların mənəvi göstəricilərindəki fərqlərə məhəl qoymur. Bu prinsip özü-özlüyündə mütərəqqi və ədalətli olub, real həyatda kimlərinsə hüquqi cəhətdən imtiyazlı olmasına yol vermir, deməli, ümumi sivil planda məqbul hesab edilməlidir. S.Xəlilov bu münasibətlə haqlı olaraq yazır: "İctimai normalara, hüquq qaydalarına hamılıqla əməl olunduqda, hər bir adam öz fəaliyyətinin azadlıq çərçivəsini müəyyənləşdirmək imkanı qazanır. Yəni qanunla məhdudlaşdırılmayan hər şey azaddır".***

Hər bir cəmiyyətdə insanlar şüurlu ictimai varlıq kimi fəaliyyət göstərdiyindən, onlar öz davranış və hərəkətlərində azad birgəyaşayış qaydalarını və hüquqi normaları nəzərə alırlar. Bu mənada, hüququn əsas pirinsipi insanların sakit və azad yaşayışını təmin etməkdir. Odur ki, onlar öz zəkalarına arxalanmaqla müəyyən hüquq qaydaları yarada bilirlər.

Fəlsəfə elmləri doktoru Qərib Allahverdiyev yazır:" Hüquqa yalnız zahiri tənzimetmə vasitəsi kimi yanaşdıqda, onun yerinə yetirdiyi funksiyaları tam dolğunluğu ilə anlamaq mümkün deyildir. Əslində, hüquq təkcə xarici tənzimetmə ilə məhdudlaşmır, o, insanların daxilinə və mənəviyyatına dərin nüfuz edir. Hüququn əxlaqiliyinin təhlilində bu məqam mütləq nəzərə alınmalıdır. Hüququn əxlaq ilə yaxınlığı və ona nüfuz etməsi, Şərqin həyat tərzi üçün daha səciyyəvidir. Burada insanların bir-birinə münasibəti Qərbdə olduğundan fərqli olaraq, ümumcəmiyyət miqyası kəsb etmir. Onlar daha çox şəxsi planda çıxış edir və iki tərəfin əlaqəsi kimi özünü göstərir. S.Xəlilov haqlı olaraq yazır ki, belə münasibətlər şəbəkəsi hüquq normalarına yox, daha çox əxlaqa və ənənəyə söykənir. Məhz bunun nəticəsi kimi, Şərqdə hər bir fərd özü üçün lokal mühit yaratmalı və azadlığını buradakı münasibətlər daxilində ifadə etməli olur."

Əlbəttə, qeyd olunan vəziyyət öz həddini aşdıqda, fərd ilə ictimai həyat və dövlət arasında fərqləri dərinləşdirir, buna görə də, o, normal demokratik cəmiyyətlər üçün məqbul hesab olunmur. Lakin bu fakt, Qərbdə olduğu kimi, müasir Şərq ölkələrinin hüquq sistemində də əxlaqi məqamların xüsusi çəkisinin durmadan artdığını istisna etmir. Bu meyil milli müstəqillik əldə etmiş ölkələrdə daha aydın hiss olunmaqdadır. Son illərdə Azərbaycanda gedən hüquqi islahatların mahiyyətinə nəzər saldıqda, bunu yəqin etmək olar. Milli dövlətçilik institutlarının fəaliyyəti təkmilləşdikcə, həm qəbul olunmuş qanunların mənəvi-əxlaqi əsasları artır, həm də ictimai şüur yüksəlir və insanların qanunlara münasibəti dəyişilir, onların hüquq mədəniyyəti inkişaf edir. Vaxtilə H.Qrosi göstərirdi ki, azad və ağıllı insan öz təbiətinə uyğun fəaliyyət göstərmirsə, bunun günahı onun tərbiyəsində və ictimai institutların qüsurlu olmasındadır. Buna görə də, insanları elə tərbiyə etmək, ictimai institutları elə keyfiyyətdə formalaşdırmaq lazımdır ki, insanın azad və ağıllı təbiəti öz haqqını qazansın, insanların birgəyaşayışı azad və rasional olması ilə səciyyələnsin .

Fəlsəfə elmləri doktoru Qərib Allahverdiyev yazır:" Ümumilikdə götürdükdə, hüquqi normalar və əxlaq normaları cəmiyyətin inkişafı gedişində əldə olunmuş sosial təcrübənin, müsbət mənəvi keyfiyyətlərin və birgəyaşayışın səmərəli formalarının gələcək nəsillərə ötürülməsi kimi çox vacib funksiya yerinə yetirir. Bu aspektdə götürülən nəsillərin varisliyi prosesinin əsas nəticələrindən birini həmin normaların məcburi xarakterli göstərişlər kimi fəaliyyət göstərməsi deyil, insanların daxili aləminə və mənəviyyatına nüfuz etmiş könüllü yerinə yetirilən qaydalar məcmusuna çevrilməsi təşkil edir. Əlbəttə, bu, çox uzun davam edən və tədrici baş verən prosesdir, onun sonu bəşəriyyətin mənəvi idealını əks etdirir."

Müasir cəmiyyətdə milli dövlətçiliyin inkişafı və milli təfəkkürün, özünüdərkin formalaşması, hüquq normaları ilə əxlaq normalarının yaxınlaşmasına, başqa sözlə deyilsə, hüququn əxlaqiliyinin artmasına əlverişli şərait yaradır və onun reallaşmasını sürətləndirir. Hazırda ictimai münasibətlərin bütün sahələrində hüquqi normaların tənzimləyici rolunun genişlənməsi heç də əxlaq normalarının təsir dairəsinin azalması demək deyildir, əksinə, indi hüquqi normaların öz daxili məzmununa mənəvilik, əxlaqilik ölçüləri getdikcə daha çox nüfuz etməkdədir. Digər tərəfdən, əxlaqi baxımdan bəraət qazandırılan hər bir davranış və hərəkət, eyni zamanda, hüquq düşüncəsi səpgisində mənalandırılır və dəyərləndirilir. Qeyd olunan özünəməxsus yaxınlaşma və bir-birinə nüfuzetmə prosesində əsas meyar rolunu insanın son məqsəd kimi qiymətləndirilməsi, onun hüquq və azadlığının vəhdətdə götürülməsi oynayır. Deyilənlərdən, belə nəticə çıxarmaq olmaz ki, artıq müasir cəmiyyətdə fəaliyyətə və davranışlara verilən hüquqi qiymət ilə əxlaqi qiymətin hər biri özünün fərqliliyini və spesifikliyini itirmişdir. İndinin özündə də cəmiyyətdə sözügedən iki növ sosial normanın tutduğu yer və oynadığı rol eyni deyildir. Bu baxımdan, konservativ və demokratik rejimə malik olan dövlətlər bir-birindən daha çox fərqlənir. Bununla yanaşı, eyni bir ictimai quruluşun öz daxilində də əxlaq və hüquq normaları müəyyən müxtəlifliyi bildirir. Qeyd olunan məqam bununla izah edilməlidir ki, hələ də cəmiyyətdə yüksək mənəviyyata əsaslanan birgəyaşayış qaydaları bütün insanların daxili varlığına, gündəlik həyat normasına çevrilməmişdir. Buna görə də, məcburetməyə və qorxu mexanizminin tətbiqinə zərurət qalmaqda davam edir. Sonuncular isə, bir qayda olaraq, hüquq normalarında əks olunur. Onların tətbiqinin məhdudlaşdırılması və imtina edilməsi isə, müasir cəmiyyət üçün əlavə problemlərin yaranmasına gətirib çıxarardı.

Hüquqi normalarda əxlaqiliyin dərəcəsi, burada azadlıq ideyasının necə əks etdirilməsi onun fərdi və ictimai maraqlara uyğun gəlməsi səviyyəsi ilə müəyyən olunur. Bu, ani baş verən akt olmayıb, daim təkmilləşməkdə olan proses kimi çıxış edir, yəni cəmiyyətdə hüquq sistemi yeniləşdikcə, hüquqi dövlət quruculuğu vəzifələri həyata keçirildikcə, o da tədricən intensivləşir.

Qeyd etmək lazımdır ki, müasir hüquq nəzəriyyələrində hüquq ilə əxlaqın münasibətləri, xüsusilə də, hüququn əxlaqiliyi problemi birmənalı izah olunmur. Bu baxımdan olan fikir ayrılıqları aşağıdakı kimi üç cür qruplaşdırılır. Birinci mövqenin tərəfdarları iddia edirlər ki, hüquqda əxlaqın minimum təmsil olunması kifayətdir. Yəni hüquqi normalar özündə yalnız ən ümumi və hamı tərəfindən qəbul edilən əxlaqi dəyərləri ifadə etməlidir. Hüquqşünasların ikinci qrupu bir qədər irəli gedir və göstərirlər ki, hüququn əxlaqiliyi, konkret olaraq, onun aşağıdakı səkkiz tələbə cavab verməsi deməkdir: ümumilik, bəyan olunma, geriyə tətbiq edilməmək, aydınlıq, ziddiyyətin olmaması, şikayət vermənin mümkünlüyü, zamanca davamlılıq, fəaliyyət ilə rəsmi elan olunanların uyğun gəlməsi. Nəhayət, üçüncü baxışın tərəfdarları (bunlar, əsasən, hüquqi pozitivizm ətrafında birləşirlər) hüququn əxlaqilik meyarlarından qiymətləndirilməsini rədd edirlər. Onların fikrincə, hüquq sistemi hüquqi normaların effektiv həyata keçirilməsi deməkdir ki, burada əxlaqilik meyarının əhəmiyyəti yoxdur .

Qeyd edək ki, normal cəmiyyətin çox mühüm göstəricilərindən biri burada hüquq ilə əxlaq arasında səmərəli qarşılıqlı təsirin olmasıdır. Bu, onlar arasında uyğunluğun təmin edilməsini, ziddiyyətə yol verilməməsini nəzərdə tutur. Bu baxımdan, S.Xəlilovun aşağıdakı fikri haqlı görünür: "Cəmiyyətin elə təşkilati strukturu, elə ictimai dəyərlər və meyarlar sistemi optimal sayıla bilər ki, şəxsi mənafe ilə ictimai mənafe, əxlaqla hüquq arasında ciddi ziddiyyət ortaya çıxmasın, insanların vicdan azadlığı hər hansı formada məhdudlaşdırılmasın".

Hüquq ilə əxlaqın vəhdəti, əslində, ayrılıqda götürülmüş fərd ilə ümumi cəmiyyətin bir-birilə ahəngdarlığının yaranmasına xidmət edir. Qeyd olunan vəzifənin reallaşdırılması, insanın həyatında və cəmiyyət miqyasında hüququn və əxlaqın yerinin, rolunun və əhəmiyyətinin dəqiq müəyyənləşdirilməsini və qiymətləndirilməsini tələb edir. Burada nəzərdə tutulmalı olan başlıca cəhət budur ki, hüquqi normalar, ümumilikdə, ictimai münasibətləri tənzim edən əsas vasitədir. Lakin hər bir insan öz həyat fəaliyyətinin özünəməxsusluğu ilə seçilir. Burada onun şəxsi əxlaqi keyfiyyətləri, mənəvi amalı və ideya inamı çox mühüm yer tutur. Sonuncular hüquq normalarının təsir dairəsindən kənarda olub, əxlaq sferasına aiddir.

Burada hüququn əxlaqiliyini ifadə edən başqa bir cəhət üzərində də dayanmaq lazım gəlir. Söhbət ondan gedir ki, əxlaqi meyarların və mühakimələrin təsiri nəticəsində hüquq normalarında insan azadlıqlarının normal hüdudlar daxilində məhdudlaşdırılması göstəricilərinə müəyyən düzəlişlər və əlavələr edilməsi zəruridir. Bu qəbildən olan dəyişikliklər bizim yanaşdığımız, kontekstdə ona görə mühüm əhəmiyyət kəsb edir ki, onlar hüquq düşüncəsində və hüquq normalarının məzmununda mənəvi dəyərlərin artmaqda olan rol oynadığını göstərir. Məhz sözügedən məqam hüquq normalarını əxlaqi kriteriyalara uyğunlaşdırmaq, onlar arasında ziddiyyətə rol verməmək üçün həyata keçirilən səmərəli vasitə kimi çıxış edir.

Bütün bunlar sübut edir ki, müasir hüquq sistemində əxlaq, sadəcə, ideya kimi iştirak etmir, o, hüquq normalarının real məzmununa nüfuz etməkdədir. Hazırda əxlaqi meyarlar və ölçülər təkcə normativ sənədlərdə deyil, həm də hüququn digər tərəflərində (dövlətin qəbul etdiyi müxtəlif qanunlarda, məhkəmə qərarlarında və s.) getdikcə, daha aydın ifadə olunur. Qeyd etmək lazımdır ki, müasir dünyada qəbul olunmuş ümumi hüquq normalarında çox ciddi irəliləyişlər baş verməkdədir ki, onlar da hüquqda əxlaqiliyin artmasına stimullaşdırıcı təsir göstərir. Hazırda baş verən qloballaşma və inteqrasiya prosesləri, dövlətlər arasında hərtərəfli əməkdaşlığın möhkəmlənməsi fonunda həm də hüquq və azadlıqların anlaşılmasında mövqelərin yaxınlaşması meyli özünü göstərir. Bunun nəticəsində, regional və beynəlxalq miqyaslı ümumi hüquqi sənədlər qəbul olunur ki, bunlarda mənəvi və əxlaqi məzmun əhəmiyyətli yer tutur. Digər tərəfdən, müasir dövrdə formalaşan yeni əxlaq nəzəriyyələri, getdikcə daha çox rasional məzmunla tamamlanır, onlarda ümumi xarakterli normalar geniş yer tutur. Bu nəzəriyyələr maarifçilik ənənələrinə əsaslanması, başqalarının fikir və rəylərinə hörmətlə yanaşılması ilə diqqəti cəlb edir. Həmin meyil də hüququn əxlaqiliyinə təkan verən mühüm amil rolunu oynayır. Hər bir sivil cəmiyyətdə ictimai münasibətlərin müxtəlif tərəfləri hüquq normaları vasitəsilə tənzim olunur. Bununla yanaşı, göstərilməlidir ki, həmin normalar təkbaşına deyil, əxlaqi məzmun ilə zənginləşdikdə, daha yüksək səmərə verir. Bu halda, insanın onlara əməl etməsi kənar məcburi qüvvənin təsirilə deyil, öz daxili tələbatının nəticəsi kimi çıxış edir. Beləliklə də, onun azadlığına geniş imkanlar açılır.

***Vahid ÖMƏROV,***
***fəlsəfə üzrə fəlsəfə doktoru***




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

səs
Son səhifə 13 fevral

## Gecə yemək yemək bu xəstəliklərə "yaşıl işıq" yandırır...



Bir çox insanlar gecə saatlarında yemək yeməyi vərdiş edib. Lakin bu olduqca ziyanlı vərdişdir. Tək ona görə deyil ki, kökəlməyə səbəb olur. "Zee News"un məlumatına görə, Meksika Universitetinin alimləri aşkar ediblər ki, gecə vaxtı yemək yeyən insanlarda ürək xəstəliklərinin və şəkərli diabetin riski artır.

Gecə vaxtı mübadilə prosesləri təbii olaraq ləngiyir, orqanizm dincəlir, bərpa olunur. Bu zaman qida qəbulu bu proseslərin pozulmasına səbəb olur. Bu isə öz növbəsində bəzi xəstəliklərin riskini artırır. Mütəxəssislərin fikrinə görə, son qida qəbulu yatmazdan ən azı 2 saat əvvəl olmalıdır.

## Bu məhsul xərçəngə "həyat" verir...

Təəssüf ki, tibbin köməyi ilə xərçəng probleminin kökünü birdəfəlik kəsmək mümkün deyil. Çarəsi hələ də tapılmadığı üçün xərçəng ölümcül xəstəliklərin siyahısına daxil edilir. Bununla belə xəstəliyin qarşısını almağa kömək edə bilən üsullar var. Amerika Klinikasının Onkologiya Cəmiyyətinin mütəxəssisləri "Journal of Clinical Oncology" tibb jurnalına çıxış edərək bildirib ki, hətta azca alkoqol qəbulu onkoloji risk artıran amildir. Odur ki, alkoqolun istehlakını maksimum azaltmaq, yaxud da ondan ümumiyyətlə imtina etmək lazımdır.

Alimlər əmindir ki, hətta cüzi miqdarda spirtli içki qəbulu qida borusu, qaraciyər, süd vəzi, yoğun bağırsaq və qırtlaq xərçənginə tutulmaq ehtimanı artırır. Aparılan araşdırmalara görə, insanlar alkoqolun təsirini orqanizmdə çox qiymətləndirmirlər, odur ki, əhalinin problem barədə məlumatlandırılması məqsədi ilə müxtəlif tədbirlər keçirilməsi nəzərdə tutulub. Statistika göstərir ki, 2012-ci ildən başlayaraq, dünyada yeni xərçəng növlərinin 5,5% -i, onkoloji xəstəliklərdən ölüm hallarının isə 5,8% -i spirtli içki ilə bağlı olub.

## Bəs onlar nə müəyyənləşdirib?

Sən demə, qadın və kişilərdə köklüyə meyillilik müxtəlif yaşlarda gedir. Qadınlar üçün ən təhlükəli yaş dövrü 35 və 40-dır. Zərif cinsin nümayəndələrinin əksəriyyəti hamiləlik zamanı kökəlməyə başlayır və hesab edir ki, ikicanlı olduğu üçün iki nəfərin yerinə yeməlidir. Lakin uşaq dünyaya gəldikdən sonra hamiləlik müddətində aldığı çəkilərdən sürətlə xilas ola bilmir və depressiyaya düşür. Kişilər isə 40 - 45 yaşından sonra köklüyə meyilli olur. Buna səbəb xroniki yorğunluq və tənbəllikdir. Yaxud da karyera qurmaq həvəsi kişilərin başını o qədər qatır ki, idmanla məşğul olmağa sadəcə vaxt qalmır. Bundan əvvəlki araşdırmalarda isə insanın 25 yaşından sonra sürətlə kökəlməyə başaldığı iddia edilmişdi. Bu, 25 yaşından sonra insanın yemək vərdişləri və hormonal tarazlıqlar dəyişməsi ilə izah olunmuşdu.

Hərəkətsiz həyat və nizamsız yuxu da buna əlavə olunduqda maddələr mübadiləsinin sürəti yavaşlayır və bədəndə yağ nisbəti artır. Beləliklə, kökəlmək qaçılmaz olur.

Yaş, cins, yuxu müddəti, mütəmadi aclıq halı, qızdırma ilə müşayiət olunan xəstəliklər, fiziki fəaliyyət kimi amillər və hormonlar da maddələr mübadiləsinin sürətinə təsir edə bilər. 25 yaşından sonra azalan bu sürət köklüyə gətirib çıxarır.

## ELAN

Bakı şəhəri, Xəzər rayonu, Türkan qəsəbəsi ərazisində Nəsirova Zərifə Adıgözəl qızının adına verilmiş 10 sot torpağın sənədləri (qeydiyyat vəsiqəsi) itdiyi üçün etibarsız sayılır.

* * *

Bakı şəhəri, Suraxanı rayonu, Hövsan bağ massivində Nəsirov Aydın Nəsir oğluna verilmiş 5 sot torpaq sahəsinin sənədləri (qeydiyyat vəsiqəsi) itdiyi üçün etibarsız sayılır.

* * *

Bakı şəhəri, Xəzər rayonu, Türkan qəsəbəsi ərazisində Ağayev Elşən Allahverdi oğluna verilmiş 10 sot torpağın sənədləri (qeydiyyat vəsiqəsi) itdiyi üçün etibarsız sayılır.

## "Neftçi"dən əzmkar qələbə!




Futbol üzrə Azərbaycan Premyer Liqasının XV turuna yekun vurulub. İkinci günün ilk qarşılaşmasında "Keşlə" klubu "Səbail"i qəbul edib. Baş hakim Ramil Diniyevin idarə etdiyi matçın 34-cü dəqiqəsində Fəhmin Muradbəylinin qolu ilə qonaqlar hesabı açıb.

Meydan sahibləri fasilədən sonra hesabı bərabərləşdirməyə nail ola biliblər. Görüşün 55-ci dəqiqəsində Pərdis Fərcad-Azad fərqlənib. Matç bu hesabla da başa çatıb. Günün son qarşılaşmasında "Kəpəz" klubu "Baksell Arena"da "Neftçi"nin qonağı olub. Baş hakim Rəhim Həsənovun idarə etdiyi görüşün 86-cı dəqiqəsində Mirabdulla Abbasov "Neftçi"nin qələbə qolunu vurub. Beləliklə turnir cədvəlinə 38 xalla "Qarabağ" komandası başçılıq edir. "Qəbələ" 32 xalla ikinci, "Zirə" 31 xalla üçüncü, "Sumqayıt" 21 xalla dördüncü, "Neftçi" 19 xalla beşinci yeri tutur. Sonrakı yerlərdə "Səbail" (14 xal), "Keşlə" (9 xal) və "Kəpəz" (7 xal) qərarlaşıb.



## Azərbaycan cüdoçusu "Böyük dəbilqə" turnirində medal qazanıb

Fransanın paytaxtı Parisdə cüdo üzrə "Böyük dəbilqə" yarışı keçirilib. AZƏRTAC xəbər verir ki, beynəlxalq turnirdə 71 ölkədən 399 cüdoçu mübarizə aparıb. Azərbaycanın cüdo üzrə milli komandası mötəbər çempionatda bir bürünc medal qazanıb. 78 kiloqramdan yuxarı çəki dərəcəsində yarışan qadın cüdoçumuz İrina Kindzerska Paris turnirində üçüncü yeri tutub. ABŞ, Belarus və Fransa idmançılarına qalib gələn Azərbaycan cüdoçusu yalnız Yaponiya təmsilçisinə məğlub olaraq ölkəmizə bürünc medal qazandırıb.

## "Real"da işimi davam etdirmək istəyirəm"



"Real" kimi klubda çalışırsansa, tənqidlər qaçılmazdır. Mən burada xoşbəxtəm və komandadakı işimi davam etdirmək istəyirəm". Qol.az-ın məlumatına görə, bu sözləri son vaxtlar istefaya göndəriləcəyi haqda xəbərlər yayılan "Real"ın baş məşqçisi Zinəddin Zidan Fransanın RTL nəşrinə açıqlamasında deyib. O, komandasının son vaxtlar uğursuz çıxışları ilə bağlı danışıb: "Bu mövsüm bizim üçün yaxşı keçmir. Burada mən də məsuliyyət daşıyıram. İşə davam etmək və qələbələr qazanmaq lazımdır". Zidan Çempionlar Liqasının 1/8 final mərhələsində PSJ ilə keçiriləcək səfər oyunu ilə bağlı da fikir bildirib: "PSJ hər il inkişaf edir. Bizə asan olmayacaq. Emeri əla mütəxəssisdir. İşinin öhdəsindən yaxşı gəlir".

## "Fənərbaxça" "Başakşehir"i məğlub edib



Fevralın 11-də futbol üzrə Türkiyə Super Liqasının 21-ci turunun növbəti oyunları keçirilib. "Fənərbaxça" səfərdə "Başakşehir" ilə üz-üzə gəlib. Çempionluq uğrunda mübarizə aparan iki komandanın qarşılaşmasında "Fənərbaxça" 2:0 hesabı ilə qələbə qazanıb. Beləliklə "Fənərbaxça" çempionatın liderini məğlub edərək turnir cədvəlində üçüncü sıraya yüksəlib və "Başakşehir" ilə arasında olan xal fərqini azaldıb. Qeyd edək ki, bu mövsüm çempionatda "Fənərbaxça"nın meydanında oynanılan matçda "Başakşehir" komandası 3:2 hesab ilə üstün olmuşdu.

## "Barselona"dan növbəti xal itkisi



Futbol üzrə İspaniya La Liqasında 23-cü turun oyunları keçirilib. Çempionatın lideri olan "Barselona" "Getafe"ni qəbul edib. Oyunda hesab açılmayıb - 0:0. 23 turdan sonra "Barselona" 59 xalla liderliyi davam etdirir. "Atletiko" 23 matçdan 52 xalla 2-ci, "Real" 22 oyundan 42 xalla 3-cü yerdədir. "Getafe" isə qazandığı 1 xal sayəsində 30 xalla 10-cu pilləyə yüksəlib.

**Baş redaktor:**
**Bəhruz Quliyev**
**Baş redaktorun müavinləri:**
**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 32.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet "Səs"in kompüter mərkəzində yığılır, səhifələnir.**
**"Azərbaycan" nəşriyyatında çap olunur**
***Qəzetdə AzərTAc, SİA, APA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.***

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 5500**